№ 211 (6212) 2024-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 21 noyabr 2024-cü il (cümə axşamı)

## Qorxulu bir hadisə yoxdur

Qurban Yetirmişli: "Yaxın günlər ərzində güclü zəlzələ gözlənilmir"



**Noyabrın 20-də Pirqulu stansiyasından 14 km cənub-qərbdə, Şamaxı rayonunda zəlzələ qeydə alınıb. Zəlzələ hiss olunmayıb.**

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Zəlzələlərin Tədqiqatı Bürosundan verilən məlumata görə, yerli vaxtla saat 05:50-də qeydə alınan yeraltı təkanların maqnitudası 3,7-ə bərabər olub. Zəlzələnin ocağı 45 kilometr dərinlikdə yerləşib.

(səh.4)



## 275 milyon dollar...

ABŞ Ukraynaya yeni yardım paketi ayırıb

**ABŞ Ukraynaya 275 milyon dollar məbləğində yeni hərbi yardım paketi ayırıb.**

Bu barədə ABŞ Müdafiə Nazirliyi məlumat verib. Bildirilir ki, paketə müxtəlif hərbi materiallar, o cümlədən HIMARS çoxsaylı buraxılış raket sistemləri, TOW tank əleyhinə raketlər, pilotsuz uçuş aparatları və kimyəvi döyüş imkanları daxil ediləcək.



# Təhlükə artır

Bu ilin 10 ayında 10 velosipedçi yol qəzasında ölüb

**"Velosiped ekoloji, iqtisadi, sağlamlıq baxımından əlverişli nəqliyyat vasitəsidir. Bununla yanaşı, velosipedçilərin yol hərəkətinin müdafiəsiz iştirakçılarından biri olduğunu da unutmamalıyıq".**

Bu barədə DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin Mətbuat xidmətinin məlumatında deyilir.

Qeyd olunub ki, cari ilin 10 ayı ərzində velosipedçilərin vurulması ilə nəticələnən 20 yol-nəqliyyat hadisəsində 10 nəfərin həyatını itirməsi, 10 nəfərin xəsarət alması da deyilənləri təsdiq edir. Bildirilib ki, xüsusilə, respublika əhəmiyyətli avtomobil yollarının kənarında yerləşən yaşayış məntəqələrinin sakinləri arasında velosipeddən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət olunmaması, o cümlədən sutkanın qaranlıq vaxtı, yaxud məhdud görünmə şəraitində digər hərəkət iştirakçılarının onları aydın görə bilmələri üçün zəruri tədbirlər görmədən, habelə nasaz və lazımınca təchiz edilməmiş velosipedlə yüksək sürətli avtomobil yoluna çıxılması ağırlıq dərəcəsi yüksək olan qəzaların baş verməsinə real zəmin yaradır:

"Baş Dövlət Yol Polisi İdarəsi bir daha velosipedçiləri, eləcə də ikitəkərli nəqliyyat vasitəsi idarə edən hər bir sürücünü təhlükəsizlik qaydalarına qeyri-şərtsiz əməl etməyə, özlərinin və başqalarının həyat və sağlamlığını təhlükə atmamağa çağırır!"





## Parisin addımları sülh prosesinə zərbə vurur

Fransa səfiri Azərbaycan XİN-ə çağırılıb

**Noyabrın 20-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.**

XİN-dən verilən xəbərə görə, görüş zamanı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib.

Bu xüsusda, Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin bu mötəbər tədbirinin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa Fransa tərəfindən təşviq edilməsinin, eləcə də COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumilikdə isə iqlim dəyişməsi ilə bağlı qarşıya qoyulan və mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin qəbulunun qəbuledilməz olduğu vurğulanıb.

(səh.2)

## Dünya müharibəsi ola bilər

Türkiyə Prezidenti xəbərdarlıq edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın Rusiya ərazisinin dərinliklərinə zərbələr endirmək üçün Amerika taktiki raketlərinin istifadəsinə icazə verməsini alqışlamadığını bildirib.**

Türkiyə liderinin Braziliyada keçirilən G20 sammitində onu müşayiət edən jurnalistlərlə söhbətində Ərdoğan Amerika hakimiyyətinin Ukrayna ilə bağlı qərarlarını düzgün hesab etmədiyini qeyd edib. "Cənab Baydenin bu addımı müharibənin daha da genişlənməsinə və uzanmasına, hətta onun sərhədlərinin başqa ölkələrə yayılmasına kömək edir", -deyə Türkiyə lideri hesab edir.

(səh.2)

# Qarabağdan gedən ermənilərə kütləvi vətəndaşlıq verilir

Ermənistan hakimiyyəti onların geri qayıtmaq istəmədiklərinə tam əmin olub



**"Dağlıq Qarabağdan olan soydaşlarımız sürətləndirilmiş qaydada Ermənistan vətəndaşlığı ala bilərlər". Bu barədə Ermənistan Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir.**

"Bunun üçün İrəvandakı Miqrasiya və Vətəndaşlıq Xidmətinə, rayonlarda isə Daxili İşlər Nazirliyinin ərazi bölməsinə getmək, ərizə yazmaq və müvafiq sənədlər təqdim etmək lazımdır. Bundan sonra bir-iki ay ərzində sizə Ermənistan prezidentinin fərmanı ilə Ermənistan vətəndaşlığı verildiyi barədə qısa mesaj gələcək. Növbəti addım olaraq, Ermənistan Respublikasının vətəndaşı kimi yeni pasport almaq üçün ərizə yazmalısınız", - məlumatda qeyd edilir.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə "Yeni Müsavat"a bildirib ki, hazırda Qarabağdan Ermənistana könüllü olaraq köçmüş erməni sakinlərin bir hissəsi qeyri-müəyyən vəziyyətdədir, hökumət bu vəziyyəti düzəltmək istəyir...

(səh.3)

# Səslər tutulur

Rusiya qələbənin yeganə favoritidir



## Bayden Trampa çox ağır miras qoyub gedir

**ABŞ hərbi yardımı azaldarsa, Ukrayna məğlub ola bilər.**

Bunu Ukrayna Prezidenti Volodimir Zelenski deyib. O bildirib ki, hər şeyə rəğmən, mübarizə aparmağa davam edəcəklər:

"Öz istehsalımız var, amma qalib gəlmək üçün kifayət etmir. Düşünürəm ki, bu, sadəcə salamat qalmaq üçün yetərli deyil. ABŞ-nin bir qərarı olarsa, nə düşünəcəyimizi müəyyən edəcəyik". Ukraynada müharibənin 1000-ci günündə Rusiya Prezidenti Vladimir Putin ölkəsinin yenilənmiş nüvə doktrinasını təsdiqləyib.

(səh.3)



## Deputatdan həyəcan siqnalı

Azərbaycanda körpə və ana ölümlərinin sayı artıb

**Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında "2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi keçirilib.**

Müzakirə zamanı çıxış edən deputatlar bir sıra təkliflər səsləndiriblər.

Millət vəkili Ceyhun Məmmədov deyib ki, universitetlərdə müəllimlərə maaşlar və elmi dərəcələrə görə verilən vəsait artırılsın.

(səh.2)

## Əhalinin restoranlara xərclədiyi pul artıb

Əkrəm Həsənov: "2 milyard manata yaxın vəsait bizim ölkə üçün elə də çox vəsait deyil"



**Bu ilin 10 ayı ərzində əhali tərəfindən restoranlarda 2 milyard manata yaxın pul xərclənib.**

Rəsmi məlumata əsasən, 2024-cü ilin yanvar-oktyabr aylarında ictimai iaşə dövriyyəsi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 11,1 faiz artaraq 1 milyard 877 milyon manat olub. Özəl sektorda ictimai iaşə dövriyyəsinin 51,2 faizi hüquqi şəxslərin, 48,8 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür.

(səh.4)

## Ölkəyə 160 elektrikli avtobus gətirilib

Hökumət sərnişindaşıma probleminin birdəfəlik həllinə çalışır



**"2030-cu ilədək paytaxtda bütün ictimai nəqliyyat vasitələrinin elektrik mühərrikli analoqları ilə əvəzlənməsi nəzərdə tutulub".**

Bunu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev söyləyib.

Nazir əlavə edib ki, Azərbaycan yaxın zamanlarda dayanıqlı ekosistemin yaradılması barədə öhdəlik götürüb...

(səh.6)



## Ermənistan başını itirmiş vəziyyətdədir

Sabir Məmmədli: "İrəvanı sülhə məcbur etmək lazımdır"

(səh.4)



## Azərbaycan hərbi baxımdan güclənməyə məcburdur

Çünki həm işğalçılıq dönəmi, həm də 44 günlük Vətən müharibəsi göstərdi ki, müasir dünyamızda gücün alternativi yoxdur

(səh.2)



# Deputatdan həyəcan siqnalı

## Azərbaycanda körpə və ana ölümlərinin sayı artıb

**Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında ”2025-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi keçirilib. Müzakirə zamanı çıxış edən deputatlar bir sıra təkliflər səsləndiriblər.**

Millət vəkili Ceyhun Məmmədov deyib ki, universitetlərdə müəllimlərə maaşlar və elmi dərəcələrə görə verilən vəsait artırılsın. Deputat bildirib ki, fəlsəfə doktorları üçün 60-dır, elmlər doktoru üçün 100 manat vəsait verilir: ”Elmi dərəcələrə görə verilən vəsaitin artırılmasına ehtiyac var”.

**Ceyhun Məmmədov eyni zamanda universitetlərin tədqiqatyönümlü fəaliyyəti üçün vəsaitin ayrılmasını, bölgə universitetlərinə qəbul sayının artırılmasını, universitetlərin maddi-texniki bazasının gücləndirilməsini də təklif edib. Onun sözlərinə görə, müəllimlərin yerdəyişmə məsələsinə də baxılmalıdır:** ”Bunun tənzimlənməsi məsələsinə baxmaq lazımdır. Mürəkkəb prosesdir, ancaq bu barədə düşünməliyik. Sertifikasiyadan keçə bilməyən müəllimlərlə bağlı planlara da aydınlıq gətirilməlidir. Söhbət 5 min müəllimdən gedir”.

**“Veteran pulu” cüzi də olsa, artırılmalıdır”**

Parlament üzvü Ceyhun Məmmədov veteranlara verilən müavinətin artırılmasının zəruri olduğunu söyləyib: ”Veteran pulu”nda cüzi də olsa, artım olmalıdır. Burada söhbət 100 mindən çox insandan gedir. Artıq bu, sosial sifariş kimi gündəmdədir”. Qeyd edək ki, 2019-cu ildə müharibə veteranlarına Prezidentin təqaüdü təsis edilib və onun aylıq məbləği 80 manat müəyyən olunub.

**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova deyib ki, Azərbaycanda körpə və ana ölümlərinin, o cümlədən abortların sayı artıb. Komitə sədri qeyd edib ki, bu səbəbdən qadın məsləhətxanalarının sayı artırılmalıdır:** ”2000-ci ildə qadın məsləhətxanaları və qadın məsləhətxanası olan tibb müəssisələrinin sayı 313 idi. 2023-cü ildə isə onların sayı 3 dəfə azalaraq 106-ya düşüb. Ana və uşaqların sağlamlıqlarının qorunması baxımından belə müəssisələrin sayının artması, bu sahədə peşəkar kadrların hazırlanması, xüsusilə onların kənd yerlərində işləməsi üçün imkanların yaradılması məqsədəuyğun olar”.

**“Dini təhlükəsizliyə spesifik yanaşmalıyıq”**

**Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa bildirib ki, dini siyasətdə düşmənin ideologiyasına qarşı aparılan mübarizəni ayrıca hissə kimi götürüb xüsusi maliyyə ayırmalıdır:** ”8,3 milyard manat müdafiə təhlükəsizlik xərclərinə ayrılır. Böyük Qayıdış üçün ayrılan 4 milyard və digər xərclər də müdafiə xərcidir. Üçüncü müdafiə xəttinə də dini nöqteyi-nəzərdən baxmaq lazımdır. Dini təhlükəsizliyə spesifik yanaşmanın tərəfdarıyam”.

**Millət vəkili Müşfiq Cəfərov təklif edib ki, elektrik avtomobillərinin ehtiyat hissələrinin ölkəyə idxalı ƏDV-dən azad edilsin. Onun sözlərinə görə, velosipedlərin də ölkəmizdə istifadəsi genişlənir, yaşıl iqtisadiyyatın ölkəmizdə təşviqi var:** ”Ona görə də velosipedlərin də ehtiyat hissələri ƏDV-dən azad edilsə, yaxşı olar. Digər problem isə odur ki, hazırda bazarda taksi çatışmazlığı var. Köhnəlmiş maşınlar taksi kimi istifadədən çıxarılır, 15 ildən artıq istifadə edilmiş maşınlara taksi fəaliyyətində qadağa qoyulur. Çox yaxşı olardı ki, prioritetlərdə taksi bazarının yenilənməsi ilə bağlı təşviqlər də öz əksini tapsın”.

**İsmayıl**

# Moskvanın İrəvana təsirləri mənasızdır

## Avropa İttifaqının Emənistandakı missiyasının müddəti uzadılacaq

**Avropa İttifaqı həyəcan təbili çalır ki, İrəvan Ermənistan-Azərbaycan sərhədindəki Aİ-nin müşahidə missiyasının müddətinin uzadılması məsələsinə hələ də aydınlıq gətirməyib. Aİ səfiri Vasilis Maraqos ötən gün bildirib ki, missiya bitdikdən sonra 200-dən çox müşahidəçinin Ermənistanda qalıb-qalmayacağı məlum deyil:**

”Missiya müddətinin uzadılması ilə bağlı qərar hələ yekunlaşmayıb, amma bu məsələ üzərində işləyirik. Bu, Ermənistan hakimiyyəti ilə müzakirə olunur”. Erməni mətbuatı da bildirir ki, Azərbaycanla yanaşı, Rusiya da Aİ müşahidəçilərinin Ermənistandakı fəaliyyətindən narazıdır. Qeyd olunur ki, İrəvanın müşahidə missiyasının müddətinin uzadılması üçün müraciət etməsi məntiqli olardı, amma vəziyyət başqa cürdür. Son zamanlar Ermənistan hakimiyyətinin Rusiyaya yönəlik siyasət yürütdüyü, Moskva ilə münasibətləri yaxşılaşdırmağa çalışdığı göz qabağındadır. Moskva missiyanı Azərbaycan, Rusiya və İrana qarşı casusluq fəaliyyətində ittiham edir.



Sülh müqaviləsi hələ imzalanmayıb, bu, onlara regionda bir müddət daha qalmağa əsas verə bilər

Avropada ehtiyatlanırlar ki, Paşinyan hakimiyyəti Qərbdən üz döndərib, yenidən Rusiyaya qucaq aça bilər. Azərbaycan da müşahidəçilərin yerləşdirilməsinin əleyhinədir. İstisna deyil ki, Bakıdan da müşahidə missiyasının mandatının uzadılmaması tələbi olub və İrəvan həmin tələbi yerinə yetirmək qərarına gəlib. Məlumat üçün deyək ki, Avropa İttifaqı müşahidəçilərinin fəaliyyət müddəti gələn ilin fevralında başa çatır.

**Azərbaycan Demokratik Partiyasının sədr müavini Həsrət Rüstəmov deyib ki, avropalı müşahidəçilərin regionda mövcud olduqları dövrdə diqqəti cəlb edən bir nailiyyətləri olmayıb. Siyasi şərhçi hesab edir ki, bu missiya Avropa İttifaqının və ümumiyyətlə, Qərbin bizim bölgəyə maraq göstərdiyinin təzahürlərindən biridir:** ”Hazırda rəsmi İrəvan onların fəaliyyətlərinin davam etməsinə maraq göstərmirsə, bu o deməkdir ki, Ermənistana Moskvanın təsirləri artacaq. Amma düşünmürəm ki, Avropa İttifaqı İrəvanla bu məsələdə həmfikirdir. Çox güman ki, bir yol tapıb Avropa İttifaqının missiyasının müddəti uzadılacaq. Nəzərə alsaq ki, sülh müqaviləsi də hələ də imzalanmayıb, bu, onlara regionda bir müddət daha qalmağa əsas verə bilər”.

**İsmayıl**

# Uğursuz antitəbliğat

## Qərbin və Fransanın atdığı oxlar daşa dəydi

**Noyabrın 20-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb. XİN-dən verilən məlumata görə, görüş zamanı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib.**



Bu xüsusda, Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin bu mötəbər tədbirinin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa Fransa tərəfindən təşviq edilməsinin, eləcə də COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumilikdə isə iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin qəbulunun qəbuledilməz olduğu vurğulanıb. Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, militarizmi və revanşizmi təşviq edən Fransanın addımlarının sülh prosesinə zərbə olduğu diqqətə çatdırılıb. Azərbaycanı hədəf alan, eləcə də normallaşma prosesini təhlükə altına salan bu addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

**Siyasi şərhçi Kənan Novruzov ”Şərq”ə söyləyib ki, hələ COP29 ərəfəsində Azərbaycana qarşı ciddi antitəbliğat kampaniyası həyata keçirilirdi:**

”Bu kampaniyanın başında isə Fransa dayanırdı. Yəni Fransa kimi ölkələr bütün mümkün imkanlarla çalışırdılar ki, Azərbaycanın COP29-a ev sahibliyi etməsinə kölgə salsınlar. Onlar eyni zamanda Cənubi Qafqazda gərginlik yaradır və Ermənistanı konfliktə çəkirdilər. Ancaq həmin cəhdlər nəticə vermədi və Azərbaycan bu gün uğurla COP29-a ev sahibliyi edir. COP29-da 160-dan çox ölkədən 70 000-dən artıq insanın iştirakı göstərir ki, Qərbin və Fransanın atdığı oxlar daşa dəydi. Bundan savayı Fransa digər dövlətlər kimi əvvəl Azərbaycanın COP29-a ev sahibliyi etməsini dəstəkləmişdi. Daha sonra onun belə addımlar nümayiş etdirməsi Fransanın ikiüzlü və riyakar olmağının bariz nümunəsidir. COP29 Birləşmiş Millətlər Təşkilatına aid olduğuna görə dolayısıyla Fransanın addımları BMT-ni boykot etmək deməkdir. Eyni zamanda sözügedən hərəkətlər Fransa siyasi elitasının xarici siyasət kursunun iflası anlamına gəlir. Fransa bütün proseslərlə Ermənistan və Azərbaycan arasında sülhə əngəl olmağa çalışır. Çünki Fransanın regionla bağlı öz maraqları var. Ancaq rəsmi Paris Bakıyla münasibətləri pisləşdirməklə özünün Cənubi Qafqazdakı mövcudluğunu sual altına alır”.

**Şahanə Ziyad**

# Parisin addımları sülh prosesinə zərbə vurur

## Fransa səfiri Azərbaycan XİN-ə çağırılıb

**Noyabrın 20-də Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.**




XİN-dən “Şərq”ə verilən xəbərə görə, görüş zamanı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib.

Bu xüsusda, Azərbaycanın ev sahibliyi etdiyi BMT-nin bu mötəbər tədbirinin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa Fransa tərəfindən təşviq edilməsinin, eləcə də COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumilikdə isə iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin qəbulunun qəbuledilməz olduğu vurğulanıb.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, militarizmi və revanşizmi təşviq edən Fransanın addımlarının sülh prosesinə zərbə olduğu diqqətə çatdırılıb.

Azərbaycanı hədəf alan, eləcə də normallaşma prosesini təhlükə altına salan bu addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

# Dünya müharibəsi ola bilər

## Türkiyə Prezidenti xəbərdarlıq edib

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın Rusiya ərazisinin dərinliklərinə zərbələr endirmək üçün Amerika taktiki raketlərinin istifadəsinə icazə verməsini alqışlamadığını bildirib.**



Türkiyə liderinin Braziliyada keçirilən G20 sammitində onu müşayiət edən jurnalistlərlə söhbətində Ərdoğan Amerika hakimiyyətinin Ukrayna ilə bağlı qərarlarını düzgün hesab etmədiyini qeyd edib.

”Cənab Baydenin bu addımı müharibənin daha da genişlənməsinə və uzanmasına, hətta onun sərhədlərinin başqa ölkələrə yayılmasına kömək edir”, -deyə Türkiyə lideri hesab edir.

Onun sözlərinə görə, Rusiya ilə Ukrayna arasında qarşıdurma məsələsində istənilən səhv ”barut çəlləyinə atılan kibrit kimidir”. ”Ona görə də mən bütün tərəflərə (Ukrayna məsələsində) ehtiyatlı addımlar atmağı tövsiyə edirəm”, -deyə Türkiyə Prezidenti qeyd edib.

Siyasətçi Ukrayna ətrafında eskalasiyanın yeni raundunun ”regionu və bütövlükdə dünyanı böyük müharibə astanasına” apara biləcəyi barədə xəbərdarlıq edərək, ”məndən sonra, hətta daşqın olsun” düşüncəsinə sadiq olan siyasətçilərdən olmadığını vurğulayıb. O, həmçinin Ukraynada sülhə nail olmaq istiqamətində addımları gücləndirməyə çağırıb.

”Biz Türkiyədə inanırıq ki, Ukrayna və Rusiya arasında müharibə silah tədarükü, qan və göz yaşlarının artması ilə deyil, sülh səyləri, xoşməramlılıq və diplomatik təsir vasitəsi ilə başa çatacaq. Tərəflər sülhə diqqət etməli və sağlam düşüncəni itirməməlidir”, - deyə Ərdoğan əlavə edib.

# Azərbaycan hərbi baxımdan güclənməyə məcburdur

## Çünki həm işğalçılıq dönəmi, həm də 44 günlük Vətən müharibəsi göstərdi ki, müasir dünyamızda gücün alternativi yoxdur



**Xəbər verdiyimiz kimi, Ermənistanın genişmiqyaslı militarizasiya siyasətinə Azərbaycan tərəfindən cavab tədbirləri çərçivəsində 2025-ci ilin dövlət büdcəsində müdafiə və təhlükəsizlik xərcləri artırılır. Dövlət büdcəsinin layihəsində növbəti il üçün müdafiə və təhlükəsizlik xərclərinin ümumilikdə 8 milyard 396 milyon manat olacağı göstərilib.**

Qeyd edək ki, ilkin olaraq adıçəkilən xərclər 6 milyard 658 milyon manat həcmində nəzərdə tutulmuşdu. Lakin Ermənistanda silahlanmanın miqyasını nəzərə alaraq Prezident İlham Əliyevin göstərişinə əsasən müdafiə və təhlükəsizlik xərcləri 1 milyard 738 milyon manat artırılaraq 8 milyard 396,3 milyon manata çatdırılıb. Bu xərclərin maliyyələşdirilməsi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin 1 milyard 700 milyon manat məbləğində artırılması hesabına təmin ediləcək. Həmçinin müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər üçün 4 milyard 717,4 manat nəzərdə tutulub.

**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib ki, Azərbaycanın müdafiə xərclərinin artırılması hər şeydən öncə dövlətimizin təhlükəsizliyi ilə bağlıdır.** Ekspert vurğulayıb ki, Azərbaycan 2020-ci ilin 44 günlük Vətən müharibəsində qalib gələrək erməni faşizminə ağır zərbə vursa da, bu gün də ölkəmizə qarşı müəyyən təhdidlər davam edir. Müzəffər Ali Baş Komandan İlham Əliyev də öz çıxışlarında bildirir ki, bu gün Ermənistanla yanaşı bəzi məkrli qüvvələr, Fransa kimi dövlətlər Cənubi Qafqazda yeni qarşıdurmaların baş verməsində maraqlıdır. Bu məqsədlə anti-Azərbaycan qüvvələri, imperialist güclər Ermənistana çoxlu silah-sursat, raket sistemləri verir, onu hər vasitə ilə müharibəyə hazırlamağa çalışırlar. Ermənistan Fransa ilə yanaşı, Hindistan və digər dövlətlərdən də müəyyən texnikalar alır. Bütün bunlar İrəvanın sülhdən daha çox müharibə haqqında düşündüyünü göstərir. Çünki sülh istəyən bir dövlətin davamlı və sürətlə silahlanması məntiqsizdir”.

**Polkovnik bəyan edib ki, belə olan təqdirdə Azərbaycan da öz müdafiə xərclərini artırmağa, öz təhlükəsizliyini etibarlı şəkildə təmin etmək üçün hərbi baxımdan güclənməyə məcburdur:** ”Çünki həm işğalçılıq dönəmi, həm də 44 günlük Vətən müharibəsi göstərdi ki, müasir dünyamızda gücün alternativi yoxdur. Öz təhlükəsizliyini, ərazi bütövlüyünü təmin etmək istəyən hər bir dövlət beynəlxalq hüquqa deyil, öz hərbi qüdrətinə etibar etməlidir. Bu səbəbdən də Azərbaycan öz müdafiə xərclərini günün tələbini və regiondakı reallıqları nəzərə almaqla artırmaqda, Silahlı Qüvvələrin peşəkarlığını, maddi-texniki təchizatını yüksəltməkdədir. Bir məqamı da qeyd etməliyik ki, Azərbaycan müdafiə xərclərini artırmaqla yanaşı, sosial-iqtisadi layihələrini də genişləndirməkdə, xalqın rifahının yaxşılaşması istiqamətində mühüm proyektlər həyata keçirməkdədir. Dövlətimizin imkanları müdafiə sektorunu gücləndirməklə yanaşı, iqtisadiyyatın sürətli inkişafını təmin etməyə, onu daha çox şaxələndirməyə imkan verir”.

**C.Xəlilov əlavə edib ki, Ermənistan iqtisadi baxımdan acınacaqlı vəziyyətdə olduğu üçün, öz silahlanmasını daha çox xaricdən toplanan ianələrin, heç vaxt ödəyə bilməyəcyi kreditlərin hesabına təmin etməyə çalışır:** ”Fransa və bəzi dövlətlər isə müəyyən məqamlarda regionla bağlı öz maraqlarını təmin etmək üçün ona müəyyən silahları təmənnasız verir ki, bu da ermənipərəst dairələrin Cənubi Qafqazda yeni bir qarşıdurmaya nə dərəcədə ehtiyac duyduğunu göstərir. Lakin həm Ermənistan, həm də ona dəstək verən dövlətlər bilməlidir ki, yeni bir qarşıdurma Ermənistan üçün yeni darmadağından başqa bir şey olmayacaq. Bu isə nəticə etibarı ilə Ermənistan dövlətinin sonu ola bilər”.

**İsmayıl**



# Qarabağdan gedən ermənilərə kütləvi vətəndaşlıq verilir

## Ermənistan hakimiyyəti onların geri qayıtmaq istəmədiklərinə tam əmin olub




**“Dağlıq Qarabağdan olan soydaşlarımız sürətləndirilmiş qaydada Ermənistan vətəndaşlığı ala bilərlər”. Bu barədə Ermənistan Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir.**

”Bunun üçün İrəvandakı Miqrasiya və Vətəndaşlıq Xidmətinə, rayonlarda isə Daxili İşlər Nazirliyinin ərazi bölməsinə getmək, ərizə yazmaq və müvafiq sənədlər təqdim etmək lazımdır. Bundan sonra bir-iki ay ərzində sizə Ermənistan prezidentinin fərmanı ilə Ermənistan vətəndaşlığı verildiyi barədə qısa mesaj gələcək. Növbəti addım olaraq, Ermənistan Respublikasının vətəndaşı kimi yeni pasport almaq üçün ərizə yazmalısınız”, - məlumatda qeyd edilir.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə ”Yeni Müsavat”a bildirib ki, hazırda Qarabağdan Ermənistana könüllü olaraq köçmüş erməni sakinlərin bir hissəsi qeyri-müəyyən vəziyyətdədir, hökumət bu vəziyyəti düzəltmək istəyir:** ”Onlar əvvəllər iddia edirdilər ki, Ermənistan vətəndaşı olaraq Qarabağda yaşaya bilərlər. Həqiqətən də Qarabağ Ermənistan Silahlı Qüvvələrinin və separatçı erməni terrorçu qruplarının işğalı altında olduğu zamanlarda orada Ermənistan vətəndaşları olan çoxlu sayda erməni qanunsuz yaşayırdı. Qarabağdan köçmüş erməni əhalinin böyük hissəsi Ermənistan vətəndaşı idi. Hətta digər başqa ölkələrin də vətəndaşları olan ermənilər gəlib Qarabağda yerləşmişdilər. Orada yaşayan erməni əhalinin bir hissəsi isə əslində Azərbaycan vətəndaşı olan, lakin Azərbaycan vətəndaşlığını qəbul etməyənlər idi. İndi onlar bölgəni könüllü tərk etdikdən sonra qeyri-müəyyən vəziyyətlə üz-üzə qalıblar, vətəndaşlıq problemi yaşayırlar. Azərbaycan vətəndaşlığından imtina etdikləri üçün Ermənistan vətəndaşlığını almağa çalışırlar. Belə görünür ki, Ermənistan hökuməti də onlara Ermənistan vətəndaşı pasportu almaları üçün şərait yaradır. Bunun üçün qanuni prosedur elan edilib. Ona görə də Ermənistan hökumətinin bu qərarının arxasında hansısa hiylənin dayandığını düşünmürəm. Qarabağdan könüllü gedən 20-30 min erməni ilə bağlı məsələnin hüquqi tənzimlənməsi ilə bağlı addımlar atılır. Bu, Ermənistandaxili ictimai-siyasi həyatda sabitliyin bərqərar olması üçündür. Görünən odur ki, baş nazir Nikol Paşinyan bir neçə güc strukturunun rəhbərini iki gün öncə vəzifədən azad edib və daxildəki proseslərlə bağlı yeni islahatlara başlayıb. Ola bilər ki, ölkədə hansısa seçkilər və ya referendum da keçiriləcək. Hökumət həm də Azərbaycanla sülh sazişinə hazırlıqla bağlı bu addımları atır. Azərbaycanla münasibətlərin tənzimlənməsi məsələsi ilə bağlı son vaxtlar onların açıqlamalarında bir müsbət dinamika müşahidə olunur. Qarabağdan köçmüş vətəndaşlığı olmayan ermənilərə Ermənistan vətəndaşlığı verilməsi ilə müəyyən gərginliyə son qoyulmuş olacaq. Mən Ermənistan hakimiyyətinin bu addımını müsbət dəyərləndirirəm”.

**Siyasi şərhçi Kənan Novruzov “Şərq”ə açıqlamasında qeytd edib ki, Qarabağdan gedən ermənilərə kütləvi vətəndaşlıq verilməsi müsbət siqnal kimi qəbul oluna biləcək məqamdır:**

”Görünür, doğrudan da, ermənilər üçün Qarabağ ”kitabı bağlanıb”. Bunu artıq nəinki erməni xalqı, Ermənistan hakimiyyəti də başa düşür. Qarabağdan qayıdanlara Ermənistan vətəndaşlığının verilməsi o deməkdir ki, rəsmi İrəvan tədricən revanşist məqsədlərindən əl çəkir. Amma bu, rəsmi Bakı üçün kifayət deyil və heç bir halda humanizm nümunəsi kimi qiymətləndirilməməlidir. Ermənistan bütövlükdə Azərbaycana qarşı ərazi iddialarından əl çəkməli və bunu konstitusiya ilə təsdiq etməlidir. Əks halda belə addımlar münasibətlərin normallaşması və yekun sülh sazişinin imzalanması istiqamətində yalnız məhdud səviyyəli irəliləyişə səbəb ola bilər. Ermənistan hakimiyyəti bunu nəzərə almalı və daha konkret addımlar atmalıdır”.

**Turan**

# Səslər tutulur

## Rusiya qələbənin yeganə favoritidir




## Raket razılaşması Rusiyanın Ukraynadakı irəliləyişlərinin qarşısını ala biləcək səviyyədə deyil

**ABŞ hərbi yardımı azaldarsa, Ukrayna məğlub ola bilər. Bunu Ukrayna Prezidenti Volodimir Zelenski deyib. O bildirib ki, hər şeyə rəğmən, mübarizə aparmağa davam edəcəklər:**

”Öz istehsalımız var, amma qalib gəlmək üçün kifayət etmir. Düşünürəm ki, bu, sadəcə salamat qalmaq üçün yetərli deyil. ABŞ-nin bir qərarı olarsa, nə düşünəcəyimizi müəyyən edəcəyik”. Ukraynada müharibənin 1000-ci günündə Rusiya Prezidenti Vladimir Putin ölkəsinin yenilənmiş nüvə doktrinasını təsdiqləyib. Bu qərar Kiyevin Rusiya ərazisində ilk dəfə uzaqmənzilli raketlərdən istifadə etməsinə cavab kimi dəyərləndirilir. Yenilənmiş doktrinada Rusiyaya qarşı hər hansı təcavüzün Kreml tərəfindən bütün koalisiyanın ona qarşı təcavüzü kimi qiymətləndirildiyi məqam da var. Doktrinanın əvvəlki variantında nüvə zərbəsi yalnız dövlətin mövcudluğuna təhlükə yarandıqda nəzərdə tutulurdu. Yenilənmiş versiya suverenlik və ya ərazi bütövlüyü üçün kritik təhlükə təşkil edən təcavüzə cavab verməyə imkan yaradır. Məlumat üçün əlavə edək ki, ABŞ Prezidenti Co Bayden Ukraynanın Rusiya ərazilərinə raket zərbəsi endirməsinə razılıq verib.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, Ukrayna Rusiyanın arxa cəbhə dərinliklərinə raketlərlə zərbə endirsə belə, bu, Ukraynanın ərazisindəki Rusiyanın nəzarət zolağına əhəmiyyətli təsir göstərməyəcək. Onun sözlərinə görə, Rusiyaya məhdud səviyyəli zərbələr endirilməsi üçün icazə verilməsinin məqsədi sadəcə Kurskda vəziyyəti donmuş cəbhə xətti kimi saxlamağa nail olmaqdır:** ”Lakin bu, Rusiyanın Ukraynadakı irəliləyişlərinin qarşısını ala biləcək səviyyədə deyil. ABŞ ”xüsusi və məhdud” döyüş sahəsi effekti yaratmaq məqsədilə Ukraynaya icazə limiti tətbiq edir, lakin bu, müharibənin gedişatını dəyişə bilməyəcək. ABŞ, Böyük Britaniya və Fransanın məqsədləri Şimali Koreyanın Ukraynaya qarşı qoşun yerləşdirilməsinin genişlənməsini sarsıtmaq niyyətindədir. Rusiya və Şimali Koreya NATO-nun genişlənmə siyasətinin Avropa səhnəsinə qarşı çıxaraq prosesə müttəfiq kimi daxil olur. Bu, gələcəkdə Rusiya-Çin-Şimali Koreya-İran dördlü ittifaqının NATO əleyhinə aqressiv tərəfdaşlıq müstəvisini stimullaşdıra bilər”.

**A.Kərimovun fikrincə, Co Bayden administrasiyasının, Böyük Britaniya ilə Fransanın Ukraynaya izn verməsi Donald Trampın daha təhlükəli qlobal situasiyaları miras alacağını deməyə əsas verir:** ”Yəni Tramp Rusiya ilə müzakirə kanallarına üstünlük versə də, o, Şimali Koreya, Çin və İranın Avropadakı iştirakına göz yummayacaq. Bununla da, ABŞ-Rusiya əlaqələrindəki mübahisələr yeni kontekstdə alovlanacaq. Eskalasiya riskləri vəziyyətin Asiya-Sakit Okeanı regionuna daşınmasını sürətləndirəcək və ABŞ bu regionda ən çox Çinlə üz-üzə gələcək. Belə olduğu təqdirdə ABŞ Çin ilə müzakirə masasında Tayvanı ”qurban verə” bilər”.

**İsmayıl**

# Kəlbəcərin işğaldan qurtulmasının 4 ili gəlir

## Yusif Bağırzadə: “Əminliklə söyləmək olar ki, tezliklə Kəlbəcər də tam inkişaf etmiş rayonlarımızdan birinə çevriləcək”



Xudavəng monastır kompleksi

**44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu qarşısında diz çökən Ermənistan 10 noyabr 2020-ci il tarixdə kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. Üçtərəfli Bəyanatın imzalanması ölkəmiz üçün diplomatik qələbə oldu və 3 rayon Ermənistan tərəfindən hərbi əməliyyatlarsız azad edildi.**

Həmin üç rayondan biri Kəlbəcər rayonu idi və 25 noyabr tarixində Azərbaycana təhvil verildi. Beləliklə, Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edilib.

**Politoloq Yusif Bağırzadə ”Şərq”ə açıqlamasında deyib ki, Azərbaycan Kəlbəcər rayonunu hərbi əməliyyat keçirmədən, siyasi yolla işğaldan azad edərək öz yurisdiksiyasına qaytardı ki, bu da olduqca böyük uğurdur və tarixi bir hadisədir. Bu gün yaşadığımız günlər, yaşadığımız anlar hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq:** ”Kəlbəcərin işğal tarixinə baxsaq görərik ki, rayon Dağlıq Qarabağ müharibəsi başlayandan iki tərəfdən mühasirədə idi. 1992-ci ildə Laçının işğalından sonra Kəlbəcərin daha bir tərəfi bağlandı və rayon 3 tərəfdən düşmən mühasirəsində qalmışdı. Kəlbəcərin Azərbaycanın digər bölgələri ilə əlaqəsi yalnız 3700 metr hündürlükdə olan Murov dağı vasitəsilə həyata keçirilirdi. Ermənistan silahlı qüvvələri Kəlbəcərin mühasirədə qalmasından yararlanaraq 1993-cü il aprelin 2-də oranı işğal etdilər. İşğal nəticəsində 511 dinc sakin öldürülüb, 321 adam əsir götürülüb və itkin düşüb, həmçinin Kəlbəcərin 60 min nəfər əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur olub. İşğal nəticəsində onlarla tarixi-mədəniyyət abidəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100-lərlə maşın, texnika və s. talan edilib, dağıdılıb və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanmışdı.

Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul etdi. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunurdu. Lakin rəsmi İrəvan həmin qətnaməni icra etmədi, beynəlxalq təşkilatlar isə ənənəvi olaraq ikili siyasət yürütməkdə davam edərək Ermənistandan onun icrasını tələb etmədi. Bununla da, 27 ildən artıq müddətdə BMT qətanmələri kağız üzərində qaldı. Nəhayət Azərbaycan xalqı özü beynəlxalq qanunların aliliyini və tarixi ədaləti bərpa etdi. 27 sentyabr 2020-ci ildə başlanan Vətən savaşında Azərbaycan Ordusu Ermənistan ordusunu diz çökdürdü və bununla həm də faktiki olaraq BMT qətnaməsinin tələbini reallaşdırmış oldu”.

**Politoloqun sözlərinə görə, Ermənistanla böyük sərhədə malik olan Kəlbəcər Azərbaycan üçün çox ciddi strateji əhəmiyyət daşıyır:** ”Cənab prezident də öz çıxışlarında Kəlbəcərin strateji əhəmiyyəti haqqında danışarkən bildirmişdi ki, Kəlbəcər kimi strateji yüksəkliklərin götürülməsi ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna nəzarət etməyə imkan verdi. Qeyd edim ki, İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdi. Biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Ordumuz əsas istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdı.

Kəlbəcər Azərbaycan iqtisadiyyatına çox böyük gəlirlər vermək imkanlarına malikdir. Kəlbəcərin azad olunmasından cəmi 4 il keçib, artıq rayonda quruculuq işləri, infrastrukturun qurulması istiqamətində çox ciddi layihələr gerçəkləşdirilib və sürətli iş gedir. Görüləcək işlərin miqyasına baxdıqda tam əminliklə söyləmək olar ki, tezliklə Kəlbəcər də tam inkişaf etmiş rayonlarımızdan birinə çevriləcək”.

**Y.Bağırzadə deyib ki, Kəlbəcər haqqında danışarkən torpaqlarımızın işğaldan azad edilməsində canlarını fəda etmiş şəhidlərimizi və qəhrəman əsgər və zabitlərimizi də yad etməliyik. Məhz onların fədakarlığı və qətiyyətinin nəticəsidir ki, bu gün 30 ilə yaxın dövr ərzində düşmən tapdağı altında olan torpaqlarımız işğaldan azad edilib:** ”Təbii olaraq dövlətimiz də onların bu fədakarlıqlarını unutmur. 2020-ci il noyabrın 26-da ”Kəlbəcərin azad olunmasına görə” medalı təsis edilib. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 9455 hərbi qulluqçusu ”Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olunub. Bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm”.

**Şəymən**




**Noyabrın 11-dən Bakıda start götürmüş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı - COP29 işini uğurla davam etdirir. Artıq mötəbər tədbiri baş tutmuş saymaq olar.**

Azərbaycanın toplantıya yüksək ev sahibliyi gerçəkləşdirdiyini də söyləmək üçün ciddi əsaslar var. Qətiyyətlə

# Şər-böhtan kampaniyası iflasa uğradı

## Siyasi dəllallar Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirə bilmədilər

demək olar ki, COP29 müasir Azərbaycanın növbəti uğur hekayəsidir. COP29-a uğurlu ev sahibliyi ölkəmizi beynəlxalq ictimaiyyətə tamamilə yeni qiyafədə tanıtdı. Dünya ictimaiyyəti bir daha planetimizi qorumaq məsələsində öz mövqeyini ortaya qoydu. Aparılan müzakirələr təkcə liderlərin iştirakı ilə deyil, eyni zamanda ekofəalların, məsələyə münasibəti olan dairələrin iştirakı ilə baş tutdu. Sadə vətəndaşların yaşıl zonaya daxil olaraq müzakirələri kənardan izləmək, pavilyonları seyr etmək imkanının yaradılması yaşıl dünya fikrinin cəmiyyətdə formalaşmasında mühüm rol oynadı. Azərbaycan COP29-a gələn qonaqlara yaşıl dünyanı qorumaq üçün atdığı praktik addımları da göstərdi. Azərbaycan indiyədək bir çox dünyamiqyaslı tədbirlərə ev sahibliyi edib. COP29 uğuru, bir növ, bu təcrübənin təntənəsidir. Bu uğur gələcək mötəbər toplantılar üçün də bazadır. Ancaq onu da nəzərə alaq ki, nüfuzlu toplantılara ev sahibliyimiz heç də asan başa gəlməyib. Həmişə anti-Azərbaycan qüvvələr və dünya ermənipərəstləri ölkəmizi nüfuzdan salmaq, tədbirin reallaşmaması üçün əllərindən gələni ediblər. Lakin heç vaxt niyyətlərinə çata bilməyiblər və bu dəfə də eyni hal yaşandı. Bu dəfə də anti-Azərbaycan qüvvələr və ermənipərəst dairələr növbəti dəfə məğlubiyyətə uğradılar.

**Millət vəkili, Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ”Şərq”ə açıqlamasında deyib ki, COP29 kifayət qədər ciddi, böyük və qlobal əhəmiyyətli tədbirdir. Deputat vurğulayıb ki, COP 1997-ci ildən bu yana hər il nüfuzlu ölkələrdən birində keçirilir:** ”COP-un 29-cu tədbirinin Azərbaycanda keçirilməsinə yekdilliklə qərar verildi. Bu qərarın özü Azərbaycanın diplomatik və siyasi uğuru kimi qiymətləndirilməlidir. Azərbaycan COP29-a kimi bir çox beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edib və böyük təcrübələr qazanıb. Hər ötən tədbirdən sonra Azərbaycanla bağlı yüksəksəviyyəli fikirlərə şahidlik etmişik. COP29 da çox böyük və peşəkar təşkilatçılıq bacarıqları ilə seçildi və tədbirə qatılan bütün qonaqlar bunu yüksək dəyərləndirdilər. Artıq 10-cu gündür ki, tədbir davam edir. Təxminən 70 mindən artıq xarici qonaq qeydiyyatdan keçib və onların böyük hissəsi ötən günlər ərzində Bakıda olublar. 80-dən artıq dövlət və hökumət başçıları iki gün keçirilmiş Liderlər Sammitində iştirak ediblər. Onların hər biri tədbirin əhəmiyyətini vurğulamaqla yanaşı, konfransın təşkilatçılığı ilə bağlı da yüksək təəssüratlarını dilə gətirdilər. Konkret olaraq COP29-un baş tutduğunu demək mümkündür”.

**Parlamentari qlobal iqlimlə bağlı beynəlxalq tədbirin əleyhinə danışan, Azərbaycana qarşı açıq-aşkar qərəz nümayiş etdirən Qərb ölkələrinə, beynəlxalq təşkilatlara da münasibətini bildirib:** ”Xeyli müddət Azərbaycana qarşı şər-böhtan kampaniyası apardılar. Azərbaycanın COP29-a ev sahibliyi ilə bağlı qərar veriləndən sonra qərəzli kampaniya daha geniş vüsət aldı. COP29-la dünyanın diqqətinin Azərbaycana yönəldiyini görənlər bunu özləri üçün fürsət bildilər. Bundan istifadə edən bədxahlar, qələbəmizi, uğurlarımızı həzm edə biməyən ermənipərəst dairələr çirkin oyunlara baş vurdular. Əfsuslar ki, içimizdəki bəzi ünsürlər də bu kampaniyaya qoşuldular. Ancaq bu cəhdlərin heç biri nəticə vermədi, Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirə bilmədilər. Tədbirin yüksək səviyyədə keçirilməsi, liderlərin aktiv iştirakı, müəyyən razılaşmaların olması, sənədlərin imzalanması göstərdi ki, qərəzli hücumlar iflasa uğradı və Azərbaycan COP29-un təşkilatçılığını tam arzuolunan səviyyədə həyata keçirdi”.

**İsmayıl Qocayev**

## Axşam söhbəti

Sherg.az



# Ermənistan başını itirmiş vəziyyətdədir

### Sabir Məmmədli: "İrəvanı sülhə məcbur etmək lazımdır"

**Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının dekabr ayında davam etdiriləcəyi deyilib. Prezidentin köməkçisi Hikmət Hacıyev də vurğulayıb ki, Azərbaycan və Ermənistan gələn ay sülh müqaviləsinin mətninin müzakirəsinə qayıdacaqlar. Onun sözlərinə görə, hazırda Azərbaycanın gündəmindəki əsas mövzu COP29-dur.**

Yəni dekabr ayı ərzində ən azından XİN rəhbərləri səviyyəsində müəyyən görüşlərin baş tutacağı ehtimalı var. Ötən ay Kazanda iki ölkənin rəhbərləri nazirlərə danışıqları intensivləşdirməyi tapşırıb. Buna baxmayaraq, ilin sonunadək razılaşdırılmamış bəndlərlə bağlı ortaq məxrəcə gəlmək ehtimalı zəif görünür. Çünki Ermənistan tərəfi sülh müqaviləsinin mətni ilə bağlı təkliflərə vaxtında cavab vermir və prosesi uzadır. Sülhü yubadan digər amillərdən biri də Nikol Paşinyanın açıqlamalarıdır. Bu mənada Paşinyanın sonuncu bəyanatı da müzakirə predmetidir. Baş nazir bildirib ki, Ermənistan və Azərbaycanın sülh şəraitində yaşaması üçün təkcə sülh sazişinə və ya digər sazişlərə deyil, "strateji sövdələşməyə" də ehtiyac var. Paşinyan Ermənistan və Azərbaycanın regional kommunikasiyaların açılması ilə bağlı qarşılıqlı məqbul həll yoluna yaxın olduqlarını da iddia edib və yenidən "sülh qovşağı"nın önəmindən danışıb. Sülh prosesinin gedişatı ilə bağlı "Şərq"in budəfəki "Axşam söhbəti"nin qonağı Bakı Dövlət Universitetinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədlidir. Professor qəzetimizə müsahibəsində İrəvan hökumətinin sülhü məqsədyönlü şəkildə uzatdığını deyib. Siyasi şərhçinin qənaətincə, Ermənistanın oyunlarına onu sülhə məcbur etməklə son qoymaq mümkündür...

**- Sabir müəllim, Paşinyanın "strateji sövdələşmə" təklifini necə şərh edərdiniz? Baş nazirin məqsədi, narahatlığı nədir?**

- Əslində, Paşinyan Ermənistanın hansı durumda olduğunu və real vəziyyətini yaxşı başa düşür. Ermənistanın regional imkanları, iqtisadi vəziyyəti heç də ürəkaçan deyil. Bu ölkə faktiki olaraq anklav şəklində mövcuddur. Ermənistanın böyük iqtisadi infrastrukturu yoxdur ki, gələcəkdə müstəqil ölkə kimi kənar dövlətlərə minnət duymadan, möhtac olmadan yaşaya, inkişaf edə bilsin. Paşinyan Ermənistanın qonşularla uzun illər rahat və firavan əlaqədə olmasını təmin etmək üçün "strateji sövdələşmə" məsələsini gündəmə gətirir. Ermənistanın vur-tut 2.5 milyon əhalisi var. Paşinyan hökuməti Qərbə, Avropa İttifaqına da meyil edir. Hökumət arxa planda 50 minlik imzatoplama kampaniyası təşkil etdi və parlamentə göndərdi. Bu proses müsbət yekunlaşsa belə, Ermənistanda böyük fəlakətlər qaçılmaz olacaq. Estoniya, Latviya və Litvada olduğu kimi Ermənistanda da gənclərin Qərbə böyük axını baş verəcək. Hazırda Baltikyanı ölkələrdə əhalinin artımı çox cüzidir və ciddi demoqrafik çətinliklər yaşanır. Qərbə üz tutma yolunda bu cür fəlakət Ermənistan üçün də keçərlidir. Deməli, nə iqtisadi, nə regional, nə də demoqrafik baxımdan Ermənistan üçün yaxşı olacaq. Nisbətən çıxış yolu Ermənistanın öz qonşuları ilə münasibətləri düzəltməsi, normal əməkdaşlıq etməsidir. Bununla Ermənistan müəyyən mənada özünü siyasi səhnədə qoruyub saxlaya biləcək.

**- Qonşuları deyəndə Azərbaycan və Türkiyəni nəzərdə tutursuz?**

- Əlbəttə. Türkiyə ilə sərhədlər açılandan sonra bu ölkənin çoxşaxəli iqtisadiyyatı, biznes dairələri, o cümlədən Azərbaycanla əməkdaşlıq Ermənistan üçün geniş imkanlar yaradacaq. 2.5 milyon əhali nədir ki? Bir şəhərin əhalisi deməkdir. Düzdür, bu, həm də Ermənistanın Türkiyə və Azərbaycanın təsiri altına düşməsi deməkdir. Amma Paşinyan anlayır ki, Azərbaycan və Türkiyə ilə münasibətlər normala dönmədən İrəvanın siyasi-iqtisadi problemləri gələcəkdə öz həllini tapmayacaq. Ona görə də dalana dirənmiş Ermənistan sülh sazişini imzalamağa məcburdur. Amma Paşinyan aldanır. Necə ki, vaxtı ilə Şuşada yallı getməklə, rəqs etməklə aldanmışdı, indi də yanılır. Zənn edir ki, Fransa onlara dəstək verəcək, dar gündə yanlarında olacaq. İran da öz oyununu oynayır. Dolayı yolla çalışır ki, Ermənistan Zəngəzur dəhlizinin açılmasına razılıq verməsin. Əvəzində öz ərazisini Azərbaycana təklif edir ki, Naxçıvana və oradan Qərbə gedəcək yol İran üzərindən keçsin, xeyrini özü götürsün. Paşinyan ABŞ ilə əlaqələri də gücləndirmək istəyir, birgə hərbi təlimlərlə ABŞ-ni Cənubi Qafqaza gətirməyə cəhd göstərir. Ermənistan həm regional, həm də geopolitik baxımdan başını itirmiş vəziyyətdədir. Qərbin, ABŞ və Fransanın vədlərinə inanan Paşinyan hökuməti sülh sazişinin imzalanması prosesini də qəsdən yubadır.

> "Qərbin, ABŞ və Fransanın vədlərinə inanan Paşinyan hökuməti sülh sazişinin imzalanması prosesini qəsdən yubadır"

**- Ermənistanın silahlanması nədən xəbər verir? Yeni müharibə ehtimalı varmı?**

- Fransa öz silahlarını Ermənistana çatdıra bilmir. Gürcüstan buna imkan vermir. Qərb dövlətlərinin təhriki ilə Hindistan Ermənistanı silahlandırır, raketlər göndərir. İrəvan düşünür ki, silah-sursat əldə etməklə öz mövqeyini gücləndirəcək və Azərbaycanla bərabər səviyyədə masa arxasına əyləşəcək. Bu, mümkünsüzdür. Azərbaycan hökuməti eskalasiya riskini nəzərə alaraq, gələn ilin dövlət büdcəsində hərbi, müdafiə xərclərini artırıb. Məğlubiyyətə uğramış Ermənistan fərqindədir ki, hərbi güc məsələsində Azərbaycanın arxasınca qaçmaq ona heç nə qazandırmayacaq. İrəvan bu cür addımlarla Azərbaycanın təzyiqlərini nisbətən yumşaltmaq niyyəti güdür. Amma ermənilərin yenidən hərbi güc potensialı toplamaq cəhdləri mənasızdır. Ermənistan 30 il ərzində ölkə ərazisini də, işğal etdikləri torpaqlarımızı da Rusiyanın silah-sursatı, hərbi texnikaları ilə doldurmuşdu. Nəticəsini 44 günlük savaşda gördük. Paşinyanın ölkəni silahlandırmasının, hərbi xərcləri artırmasının başqa səbəbi də var. Baş nazir daxildəki revanşist gücləri, hökumətə qarşı çıxan müxalif gücləri də sakitləşdirməyə çalışır.

> "Çıxış yolu Ermənistanın öz qonşuları ilə münasibətləri düzəltməsi, normal əməkdaşlıq etməsidir. Bununla Ermənistan müəyyən mənada özünü siyasi səhnədə qoruyub saxlaya biləcək"

**- Çərçivə sülh sazişinin imzalanmasından söhbət gedir. Yekun müqavilədən öncə hansısa ümumi sənədin imzalanması mümkündürmü?**

- Sadəcə, sənəd xatirinə hər hansı sazişi imzalamağa ehtiyac yoxdur. İkinci Dünya müharibəsindən sonra Almaniya ilə Rusiya arasında sülh sazişi imzalanmayıb. 1956-cı ildə bir protokol imzalanıb və iki ölkə həmin protokola uyğun hərəkət ediblər. Kuril adaları ilə bağlı da Rusiya-Yaponiya arasında saziş yoxdur. Demək istədiyim odur ki, sülh sazişi məsələsində Paşinyan hökumətinin oyunlarına aldanmaq olmaz. Bəzi siyasi şərhçilərimiz tez-tez deyirlər ki, əvvəlcə çərçivə sənədi imzalansın, incəlikləri sonra müzakirə edilsin. Buna ehtiyac yoxdur. 30 illik işğal faktı göz önündədir, izləri hələ də Qarabağda durur. Buna rəğmən, ermənilərin işğalçılığını onların boyunlarına qoya bilmirik. İllər sonra İrəvana, onları himayə edən Qərbə nəyisə sübut edə biləcəyikmi? Lazım olarsa, Ermənistana hərbi güc tətbiq etməklə fundamental şərtlərə əsasən yekun sülh müqaviləsinə imza atmağa məcbur etməliyik. İrəvanı sülhə məcbur etmək lazımdır. Sülh sazişinin uzanmasının Ermənistan üçün çox ağır nəticələri olacaq. Ermənistan sülh sazişini imzalamağa hazır olduğunun görüntüsünü yaradır. Daha doğrusu, burada Paşinyanın Ermənistan üçün məqbul saydığı sülh mətninin imzalanmasından söhbət gedir. Təbii ki, Azərbaycan bununla razılaşmır. Bakının tələbi odur ki, sülh sazişi fundamental tələblər yerinə yetirilməklə imzalansın.

**- Hesab edilir ki, sülh prosesi ilə yanaşı, Ermənistandan törətdikləri cinayətlərə görə təzminat da tələb edilməlidir...**

- Azərbaycan beynəlxalq arbitraj məhkəmələri ilə öz haqqını tələb edir və etməlidir. Ötən illərdən ciddi məhkəmə prosesləri başlayıb, müəyyən nəticələr var. Beynəlxalq Haaqa Məhkəməsində, Ədalət Məhkəməsində Ermənistanın 30 illik işğal dövründə Azərbaycana vurduğu ziyanın təzminatı tələb olunur. Üstəlik, COP29 çərçivəsində aydın oldu ki, Ermənistan 30 illik işğal dövründə həm də Azərbaycanın enerji resurslarına çıxışını da məhdudlaşdırıb, əngəlləyib. Çoxsaylı sərvətlərimizi, resurslarımızı istismar ediblər. Ermənistan bütün bunlara görə təzminat ödəməli, cəzalandırılmalıdır. Yəni Ermənistan diplomatik vasitələrlə də Azərbaycan tərəfindən sıxışdırılır.

**- Qərbi azərbaycanlıların geri dönüş haqqını görməyən bəzi Qərb dairələri "ermənilərin Qarabağa qayıdışından" danışırlar. Bu məsələ nəvaxtadək Bakıya təzyiq vasitəsi kimi istifadə ediləcək?**

- Əvvəlcə onu xatırladım ki, 1989-cu ildə Ermənistan Ali Sovetinin Rəyasət Heyətinin Qərbi azərbaycanlıların öz yurdlarından deportasiya edilməsi ilə əlaqədar xüsusi qərarı var. Bu qərar ləğv edilməlidir. Qərbi Azərbaycandan zorla qovulmuş insanlarımız öz torpaqlarına qayıtmaq hüququna malikdir və onların bu hüququ mütləq tanınmalıdır. Ermənipərəst dairələr Qarabağdan öz xoşları ilə getmiş ermənilərin "geri dönüş" hüququndan danışırlar, onların geri qayıtmasını tələb kimi irəli sürürlər. Problem ondadır ki, bəzi politoloqlarımız, diplomatik dairələrimiz "ermənilərin Qarabağa qayıtması" tələbinin qarşısına Qərbi azərbaycanlıların öz yurdlarına geri dönməsi məsələsini qoyurlar. Halbuki bunlar tamam fərqli məsələdir və bir-birinə qarışdırmaq doğru deyil. Ermənistanın və onun himayədarlarının istəyi başqadır, Azərbaycan dövlətinin tələbi tamam başqadır. Vizual olaraq iki məsələni bənzətsələr də, bunlar ayrı söhbətlərdir. Bəzi diplomatlarımız son dərəcə diqqətli olmalı, erməni hiylələrinə uymamalıdır. Ermənilər Qarabağı könüllü tərk ediblər, öz istəkləri ilə təhlükəsiz qaydada gediblər. Heç kim onlara təzyiq göstərməyib, çıxmaları barədə qərar verilməyib. Amma Qərbi azərbaycanlılar məhz Ermənistan dövləti səviyyəsində rəsmi qərar əsasında deportasiya olunublar. Azərbaycanda isə Qarabağda yaşamış ermənilərlə bağlı heç bir hüquqi qərar yoxdur. İrəvan ilk növbədə həmin qərarı ləğv etməli, Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışını ləyaqətli şəkildə təmin etməlidir.

**- Paşinyan hökuməti kommunikasiya məsələsini yenidən gündəmə gətirir. Hətta Bakıya "sülh qovşağı" layihəsini də təqdim ediblər. İrəvanın bu gedişi nəyə hesablanıb?**

- Ermənistan regional və beynəlxalq əlaqələrini normallaşdırmazsa, onun gələcəyi, inkişafı sual altındadır. Bunun fərqində olan Paşinyan kommunikasiyaların işə düşməsinin həyati əhəmiyyət kəsb etdiyini anlayır. Ancaq Paşinyan kommunikasiya prosesində də səmimi deyil, ona görə də "sülh qovşağı" layihəsini ortaya atır. Məhz Ermənistanın manipulyativ hərəkətlərinə, kənar gücləri prosesə cəlb etmək təşəbbüslərinə görə kommunkasiya məsələsinin müzakirəsi sonrakı mərhələyə saxlandı. Əgər İrəvan səmimi olsaydı, Zəngəzur dəhlizinə "yox" deməzdi. Əslində, Zəngəzur dəhlizi iqtisadi baxımdan birbaşa Ermənistanın özü üçün də olduqca faydalıdır. Ermənistan Zəngilandan Dərbəndədək dəmir yolundan istifadə imkanı qazanacaq. Ermənilər öyrəşiblər ki, hər addımları qarşılığında nəsə istəsinlər. Hətta öz faydaları üçün gördükləri işlərdə belə əvəzində nələrsə tələb edirlər. BMT-nin COP29 tədbirinə gəlmək üçün belə Bakının qarşısında absurd şərtlər qoydular. Ermənilər onlara "salam verəndən borc istəyirlər". Bu, normal təfəkkür deyil. Ermənistan hökuməti birdəfəlik dərk etməlidir ki, sülh olmazsa, kommunikasiyalar açılmazsa, bataqlıqdan çıxa bilməyəcəklər.

**İsmayıl Qocayev**

# MEDİA qanun layihəsini şərh edib

### Jurnalistlərin gəlirlərinin 75 faizi vergidən azad ediləcək

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi ölkəmizdə həyata keçirilən media islahatlarının əsas prioritetidir.**

Bunu Medianın İnkişafı Agentliyinin aparat rəhbəri Rəqsanə Kərimova jurnalist fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirlərin 75 faizinin gəlir vergisindən azad edilməsini nəzərdə tutan qanun layihəsi barədə APA-nın sorğusuna cavab olaraq bildirib.

Onun sözlərinə görə, "Media haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ilk dəfə olaraq, "media subyekti" və "jurnalist" terminlərinə anlayış verilib, bu fəaliyyətlə məşğul olan şəxslərin dairəsi dəqiqləşdirilib, nəticədə yaradılmış hüquqi əsas növbəti mərhələdə bu şəxslərin iqtisadi müstəqilliyinin gücləndirilməsi üçün tədbirlərin görülməsinə zəmin yaradıb:

"Media fəaliyyəti ilə məşğul olan şəxslərə yönəlmiş islahatlar paketinin ilk tərkib hissəsi Azərbaycan Respublikası Prezidentinin ipoteka qanunvericiliyinə edilən dəyişiklikləri təsdiqləməsi və beləliklə, jurnalistlərə dövlət təminatlı güzəştli ipoteka kreditindən istifadə etmək hüququnun verilməsi oldu.

Bundan sonra isə 13 may 2022-ci il tarixində kütləvi informasiya məhsulları, kitablar və dərsliklərin ərsəyə gəlməsi üçün kağızın idxalı və satışı ƏDV-dən azad edildi.

Media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində növbəti prinsipial addım 2023-cü ilin yanvarın 1-dən ölkə mətbuatına vergi tətillərinin tətbiqi oldu. Belə ki, çap və onlayn media subyektlərinin öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər, reklam gəlirləri, habelə onlara verilən müvafiq maddi yardımlar gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, həmçinin onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi ƏDV-dən 3 il müddətinə azad olundu.

Müxtəlif görüşlər zamanı həm paytaxtda, həm də bölgələrdə fəaliyyət göstərən jurnalistlər gəlir vergisinin tam həcmdə ödənilməsinin onlar üçün ağır olduğunu ifadə etməklə, bu istiqamətdə də dövlətin dəstəyinə ehtiyac duyduqlarını bildirirdilər.

Bu gün Vergi Məcəlləsinə təklif edilən dəyişiklik jurnalist fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirlərin 75 faizinin hər hansı şərt tətbiq edilmədən gəlir vergisindən azad edilməsini nəzərdə tutur.

Xüsusilə, 3 nəfər işçi tələbi nəzərdə tutulmadan həmin şəxslərin əldə etdikləri gəlirlərin 75 faizinin vergidən azad edilməsi təklifi müstəsna əhəmiyyət daşıyan bir nüansdır. Bu o deməkdir ki, layihə qəbul olunarsa, təqvim ili üzrə əldə etdiyi gəlirlərin həcmi xərclər nəzərə alınmadan 45000 manatadək olan jurnalist fəaliyyəti ilə məşğul hər bir şəxs bu fəaliyyətdən əldə edilən gəlirin vergisinin 75 faizindən azad olacaq", - aparat rəhbəri vurğulayıb.

# Əhalinin restoranlara xərclədiyi pul artıb

### Əkrəm Həsənov: "2 milyard manata yaxın vəsait bizim ölkə üçün elə də çox vəsait deyil"



**Bu ilin 10 ayı ərzində əhali tərəfindən restoranlarda 2 milyard manata yaxın pul xərclənib. Rəsmi məlumata əsasən, 2024-cü ilin yanvar-oktyabr aylarında ictimai iaşə dövriyyəsi 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 11,1 faiz artaraq 1 milyard 877 milyon manat olub.**

Bakupost.az rəsmi məlumatlara istinadən xəbər verir ki, özəl sektorda ictimai iaşə dövriyyəsinin 51,2 faizi hüquqi şəxslərin, 48,8 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür. Hüquqi şəxslər üzrə dövriyyə 2023-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə 12,9 faiz artaraq 953,0 milyon manata çatıb. Dövlət müəssisələrində ictimai iaşə dövriyyəsinin həcmi 17 milyon 67 min manat, özəl müəssisələrin ictimai iaşə dövriyyəsinin həcmi 1 milyard 859 min 946 min manat təşkil edib. İcitmai iaşə dövriyyəsinin 2 milyarda yaxınlaşması nədən xəbər verir? İnsanlarımız restoranlara həqiqətənmi bu qədər pul xərcləyir?

**İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında qeyd etdi ki, 10 ayda 2 milyarda yaxın pul xərclənməsi 10 milyondan çox əhalisi olan ölkə üçün elə də böyük rəqəm deyil:**

- 10 ayda 10 milyonluq əhalinin ictimai iaşə obyektlərinə 2 milyard pul xərclədiyini aylara bölsək, bir nəfərə 200 manat, hər aya isə 20 manat düşür. Məncə, bu, böyük rəqəm hesab edilməz. Avropa ölkələrində ictimai iaşə obyektlərində bundan qat-qat çox pul xərclənir. Bəzən hətta deyirlər, insanların aylıq büdcəsinin yarısı restoranlara sərf olunur. Yəni 2 milyard manata yaxın vəsait bizim ölkə üçün elə də çox vəsait deyil. İctimai iaşə deyildikdə təkcə restoranlar nəzərdə tutulmamalıdır. Kafelər, xəngəlxana, çayxana, dönər və sair küçə yeməkləri satışı, həmçinin şadlıq sarayları da bura daxildir. Bunlar da ictimai iaşədir. Həm də indi insanlar təkcə restoranlara getmir, evə, obyektlərə, iş yerlərinə onlayn sifarişlər, kuryer vasitəsilə çatdırmalar da son zamanlar çox artıb. Əslində, bu rəqəm bəlkə də heç 2 milyard deyil, daha çoxdur. Çünki bu, açıqlanan rəsmi məlumatdır. Yəni qeydiyyatı aparılmış xidmətlər. Amma bəzən kassa aparatından keçməyən, kənar xidmətlər də olur, kassaya vurmurlar, qeydiyyata düşmür. Digər tərəfdən, xərclər lap 3 milyard olsa da, çox hesab edilməz. Nəzərə alaq ki, bölgələrdə ictimai iaşə xidmətindən ümumiyyətlə az istifadə edilir. Bu xidmət əsasən Bakıda populyardır, geniş yayılıb. Bunu edən də imkanlı şəxslərdir. Ya da insanlar var ki, ancaq restoranda, kafedə qidalanırlar. Varlığa nə darlıq. Başqa tendensiya işləyən həyat yoldaşlarının, ər də, arvad da işləyir, evdə xörək bişirməyə vaxt yoxdur. Belə insanlar restoran, kafe xidmətlərindən yararlanır, xüsusən tez hazırlanan qidalar sifariş verirlər. Bəzən görürsən ucuzdur bu xidmətlər. Məsələn, dönərlər ucuzdur, az imkamlı vətəndaş da alıb yeyir, baxmayaraq ki, ziyanlıdır. Ona görə də qeyd edilən bu rəqəm qeyri-adi görünməməlidir. Əhalinin məişətində dəyişmə baş verib. Zərərli olsa da.

**Məlahət Rzayeva**

# Qorxulu bir hadisə yoxdur

### Qurban Yetirmişli: "Yaxın günlər ərzində güclü zəlzələ gözlənilmir"





**Noyabrın 20-də Pirqulu stansiyasından 14 km cənub-qərbdə, Şamaxı rayonunda zəlzələ qeydə alınıb. Zəlzələ hiss olunmayıb.**

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Zəlzələlərin Tədqiqatı Bürosundan verilən məlumata görə, yerli vaxtla saat 05:50-də qeydə alınan yeraltı təkanların maqnitudası 3,7-ə bərabər olub.

Zəlzələnin ocağı 45 kilometr dərinlikdə yerləşib.

**Geologiya-mineralogiya elmləri doktoru, Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli "Şərq"ə bildirib ki, Şamaxı bizim ən aktiv seysmogen bölgəmizdir:** "Şamaxı digər ərazilərlə müqayisədə ən aktiv bölgə sayılır. Yəni tez-tez Şamaxıda təkanlar olur. Bu gün olan zəlzələnin maqnitudası 3-dən böyük olduğuna görə sayta yerləşdirmişik. Kiçikləri heç vaxt qoymuruq. Zəlzələ 45 km dərinlikdə olub və heç bir problem yoxdur. Bu cür xırda təkanlar hər zaman olur və olacaq da. Lakin dağıdıcı gücə malik olan zəlzələ yoxdur. Bu gün 34 təkan qeydə alınıb. Ancaq onların içərisində ən güclüsü Şamaxıda 3.7 bal şiddətində olub. Yaxın günlər ərzində güclü zəlzələ gözlənilmir. Qorxulu bir hadisə yoxdur".

**Fidan Həmişəyeva**






# "İşğal günlərini qeyd etməkdən yorulmuşduq"

## Akif Nağı: "İşğaldan azad olunmuş Ağdam erməni vandalizminin şahididir"

**20 Noyabr Ağdam rayonunun erməni işğalından azad edildiyi gündür. Bu tarixi hadisə cənab Prezident İlham Əliyevin siyasi ustalığı, sərkərdəlik məharəti və Azərbaycan Ordusunun Vətən müharibəsindəki qələbəsi sayəsində mümkün oldu.**

2020-ci ilin noyabrın 10-da imzalanan üçtərəfli bəyanata uyğun olaraq Ağdam rayonu hərbi əməliyyatlar keçirilmədən, bir güllə belə atılmadan Azərbaycana qaytarılıb.

Prezident İlham Əliyevin 2023-cü ilin iyulun 31-də imzaladığı sərəncama əsasən, hər il noyabrın 20-də Ağdam Şəhəri Günü təntənəli şəkildə qeyd edilir.

**Əslən Ağdamdan olan, Azad Vətən Partiyasının (AVP) sədri Akif Nağı "Şərq"ə açıqlamasında deyib ki, Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Bu tarix xalqımız üçün qürur günüdür.**

AVP sədri Vətən müharibəsi nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonunun işğal olunmuş ərazisinin Azərbaycana təhvil verilməsini və bununla da, əsaslı şəkildə insan təlafatının qarşısının alınmasını Azərbaycanın həm də siyasi müstəvidə qazandığı Qələbə kimi şərh edib: "Ağdam rayonu hərbi əməliyyat keçirilmədən siyasi yolla işğaldan azad edilib. Bu uğur Azərbaycan Prezidenti İlham Əliyevin böyük diplomatik bacarığının nəticəsidir. Azərbaycan Ordusu və xalqı onun ətrafında bir yumruq kimi birləşərək, qəddar düşməni torpaqlarımızdan qovdu. Prezident İlham Əliyev bu münasibətlə deyib ki, biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir.

44 günlük müharibənin gedişində Azərbaycan Ordusu bütün mənalarda Ermənistanın silahlı qüvvələrindən üstün olduğunu nümayiş etdirərək onların müdafiə xətlərini yarıb qüvvələrini sıradan çıxardı. Zamanın əleyhinə işlədiyini görən Ermənistan tərəfi də işğalda qalan 3 rayonu döyüşsüz təslim etməyə məcbur oldu. Bu mənada Ağdam şəhəri döyüşsüz, itkisiz azad olundu demək də doğru ifadə deyil. 44 gün ərzində atılan güllələr, verdiyimiz itkilər, torpaqlarımız uğrunda tökülən qanlar həm də Ağdam uğrunda olub. Bildiyiniz kimi, 2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin cəbhədəki təxribatının qarşısını alan Azərbaycan Ordusu əks-hücumla bir neçə rayonu, yüzlərlə kənd və qəsəbəni, strateji yüksəkliyi düşməndən azad edib. İşğaldan azad olunan şəhər və kəndlərimizdə, qəsəbələrimizdə üçrəngli bayrağımızın ucaldılması ilə nəticələnən 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun qələbəsi ilə başa çatıb. İşğalçı erməni silahlı birləşmələri ordumuzun dəfedilməz hücumu qarşısında tab gətirə bilməyərək xeyli itki ilə geri çəkiliblər. Bununla yanaşı, düşmənin minlərlə canlı qüvvəsi, hərbi texnikası məhv edilib. Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan Ordusu qarşısında müqavimət göstərməyin faydasız olduğunu anlayaraq kapitulyasiya sənədinə imza atmağa məcbur olub. Beləliklə, 10 noyabr 2020-ci il tarixində Dağlıq Qarabağ münaqişəsi zonasında atəş və bütün hərbi əməliyyatlar tam dayandırılıb".

**Ağdamın işğalı zamanı itkilərimizin çox olduğunu xatırladan A.Nağı deyib ki, şəhərin müdafiəsi uğrunda çoxlu qanlar tökülmüşdü:**

"Ağdam uğrunda 42 gün davam edən döyüş 1993-cü il 23 iyul tarixində Ağdam ərazisinin 73 faizinin işğalı ilə bitdi. Döyüşlər zamanı 6 mindən artıq insan şəhid olub, minlərlə insan yaralanıb, əhali öz doğma eveşiyindən qovularaq məcburi köçkün kimi Azərbaycanın demək olar bütün rayonlarında məskunlaşıb. Ağdamın işğalı ilə bağlı dünya ictimaiyyəti yekdil mövqe ifadə edib, ATƏT-in Minsk qrupunun 9 ölkəsi adından bu "hücum qətiyyətlə pislənib", işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasına çağırış edilib. Lakin Ermənistan tərəfi beynəlxalq qanunlara tabe olmaqdan yayınıb, Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi və ərazilərin yandırılması kimi qeyri-qanuni əməllər törədib. Ağdamı xarici və yerli jurnalistlər "Qafqazın Xirosiması" adlandırıblar. İşğaldan azad olunmuş Ağdam erməni vandalizminin şahididir. Ermənistan qəsdən mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub, təhqir və qarət edib".

Ağdam şəhər gününün əhəmiyyətinə toxunan partiya sədri qeyd edib ki, biz işğal günlərini qeyd etməkdən yorulmuşduq: "Bu gün isə ordumuzun və Ali Baş Komandanımızın sayəsində biz şəhər günləri, Qarabağımızın azadlıq günlərini qeyd edirik.

Azərbaycan dövlətinin diqqəti oradadır. Ağdamı regionun böyük bir şəhərinə və iqtisadi mərkəzə çevirməklə bağlı çox böyük layihələr var. Oradakı işlər geniş şəkildə davam etdirilir. Ağdamla və insanların ora köçürülməsi ilə bağlı planlar da var. Hesab edirəm ki, Ağdam yaxın vaxtlarda tam şəkildə bərpa olunacaq və əvvəlkindən də qat-qat gözəl olacaq. Beləliklə, Ağdam dünyanın ən müasir və cəlbedici şəhərlərindən birinə çevriləcək. Ermənilər elə bilirdilər ki, artıq Ağdamı sıradan çıxarıblar. Amma Ağdam küllərindən yenidən doğuldu".

Şəymən

# İstərdik ki, Hindistanla da yaxşı münasibətlərimiz olsun

## Ancaq bu çətinliklər Azərbaycan-Pakistan dostluğuna xələl gətirə bilməz



**Azərbaycan-Pakistan hərbi əlaqələrinin perspektivləri müzakirə edilib. "IDEAS 2024" 12-ci Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün Pakistanda işgüzar səfərdə olan Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev həmkarı general Sahir Şamşad Mirza ilə görüşüb.**

Görüşdə Azərbaycan və Pakistan arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan hərbi əlaqələrin cari vəziyyəti, birgə əməkdaşlığın yeni perspektivləri müzakirə edilib, strateji tərəfdaşlığın yüksələn xətlə inkişaf etdiyi vurğulanıb. Tərəflər, həmçinin münasibətlərin daha da möhkəmlənməsində bu cür görüşlərin əhəmiyyətini qeyd ediblər. Maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar. Xatırladaq ki, sentyabr ayında müdafiə nazirləri arasında da görüş keçirilib və hərbi əməkdaşlıq müzakirə olunub. Azərbaycanın yaxın dostluq və qardaşlıq əlaqələri qurduğu, qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltdiyi ölkələrdən biri də Pakistandır. Hər iki ölkə həm ikitərəfli, həm də çoxtərəfli platformalarda bir-birinə daim dəstək göstərir və əlaqələrimiz bütün sahələrdə sürətlə inkişaf edir. Prezident İlham Əliyevin iyulun 11-12-də Pakistana dövlət səfəri keçlən yolun təqdimatı oldu. Azərbaycana gələn pakistanlıların sayı son illər ərzində daha da artıb. Pakistan ilə Azərbaycan arasında qardaşlıq münasibətləri möhkəm bünövrəyə əsaslanır. Strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və bütün sahələrdə inkişafının təmin edilməsi istiqamətində aparılan müzakirələr, imzalanan sənədlər də bunun təsdiqidir. Azərbaycan ilə Pakistan arasında müqavilə-hüquq bazası kifayət qədər genişdir. İndiyə qədər 38 sənəd imzalanıb, 25 sənəd layihəsinə isə hazırda baxılmaqdadır.

**Bakı-İslamabad münasibətlərindən "Şərq"ə danışan "Alyans" Strateji Araşdırmalar Mərkəzinin sədri Abutalıb Səmədov xatırladıb ki, Pakistan Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Siyasi şərhçi vurğulayıb ki, Pakistan daim Azərbaycanın yanında olub, ölkəmizə hərbi-siyasi dəstək verib:**

"Ermənistanla diplomatik əlaqələr qurmayan azsaylı dövlətlərdən biri Pakistandır. Qardaş ölkə ilə hərbi əməkdaşlığımız imkan verir ki, Pakistanın istehsal etdiyi ən müasir silahları ən münasib qiymətlərlə əldə edə bilək. 44 günlük müharibə dövründə də Pakistan hərbi gücü ilə daim yanımızda oldu, bütün imkanları ilə bizə dəstək verdi və bu Qələbəmizdə müəyyən rol oynadı. Əfsuslar olsun ki, Hindistan Azərbaycan-Pakistan münasibətlərinə qısqanclıqla yanaşır. Pakistanla Hindistan arasında uzun illərdir davam edən ərazi mübahisəsi var. Tərəflər arasında dəfələrlə qanlı toqquşma baş verib. Nəticədə Pakistanla yaxınlığımız Hindistanın bizə düşmən münasibət göstərməsinə gətirib çıxarıb".

**Analitik hesab edir ki, Hindistanla münasibətlərimizdə müəyyən soyuqluğun olması bizə problemlər də yaradır:**

"Hindistan məqsədli şəkildə Ermənistana müxtəlif silahlar satır və İrəvanla hərbi əməkdaşlığı genişləndirir. Müxtəlif beynəlxalq tədbirlərdə də Hindistan Azərbaycan üçün müəyyən problemlər yaradır, əleyhimizə çıxış edir, yaxud səs verir. Azərbaycan Şanxay İqtisadi Əməkdaşlıq Təşkilatında müşahidəçi statusu almaq istəyir. Ancaq Hindistan buna etiraz etdiyinə görə məqsədimizə nail ola bilmirik. Ölkəmizin BRICS-in əvvəlki iclasına qonaq qismində dəvət almasına da Hindistan qarşı çıxmışdı".

A.Səmədov əlavə edib ki, bu çətinliklər Azərbaycan-Pakistan dostluğuna xələl gətirə bilməz: "Əlbəttə, istərdik ki, Hindistanla da yaxşı münasibətlərimiz olsun və Pakistanla yaxın tərəfdaşlığımız Hindistan-Azərbaycan əlaqələrinə mənfi təsir göstərməsin. Ümid edirik, gələcəkdə Azərbaycan-Hindistan münasibətləri də normallaşacaq. Çünki Hindistan da iqtisadi, hərbi cəhətdən güclü dövlətlərdən sayılır".

İsmayıl Qocayev

# Maliki SEPAH-ın tezisləri üzrə çıxış edir

## İran parlamentinin üzvünün Xəzərin çirklənməsi haqda dedikləri cəfəngiyyatdır



**İran Prezidenti Məsud Pezeşkian COP29-da şəxsən iştirak etməli idi, lakin "sionist rejimin" rəsmisinin iştirakı səbəbindən sammitə gəlmədi. Bu iddia ilə İran parlamentinin Milli Təhlükəsizlik Komissiyasının üzvü Fədahüseyn Maliki çıxış edib.**

Onun iddiasına görə, Azərbaycan Tehran Konvensiyası əsasında Xəzər dənizinin mühafizəsi ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyib. Malikinin ən mühüm maneənin İsraili enerji ilə təmin etmək məqsədilə Azərbaycanda Britaniya və İsrail şirkətlərinin olmasını göstərib. Bunun isə mehriban qonşuluq siyasəti və Tehran Konvensiyasının ruhuna zidd olduğunu deyib. İran parlamentinin Milli Təhlükəsizlik Komissiyasının üzvü Azərbaycana qarşı təhdidedici ifadələr səsləndirib: "Biz gözləyirik ki, Xarici İşlər Nazirliyi, Ətraf Mühit Agentliyi və Energetika Nazirliyi Azərbaycanın qanun pozuntuları ilə bağlı parlamentə geniş hesabat təqdim edəcək. Biz buna daha ciddi nəzarət edəcəyik". Qeyd edək ki, İran prezidentinin COP29-un Liderlər Sammitində iştirak etməməsinin səbəbi kimi İsrail rəsmilərinin bu tədbirə qatılmasının göstərilməsi haqda iddialar həqiqəti əks etdirmir. Ona görə ki, İsrail Prezidentinin Ofisi İshaq Hersoqun Azərbaycana "COP29 tədbirlərinin ikinci həftəsində gedəcəyi haqda rəsmi açıqlama yaymışdı. Yəni İsrail nümayəndələrinin Liderlər Sammitində iştirak etməyəcəyi əvvəlcədən bəlli idi. Məsud Pezeşkianın isə Liderlər Sammitində iştirak edəcəyi rəsmən təsdiqlənmişdi. Ancaq Pezeşkian heç bir rəsmi açıqlama vermədən səfərini ləğv etdi. Başqa yandan, İran bu vaxta qədər COP konfranslarında heç vaxt yüksək səviyyədə iştirak etməyib, üzərinə heç bir öhdəlik götürməyib, iqlim dəyişikliyinə qarşı mübarizə məqsədilə vəsait xərcləməyib. Buna görə də, İran ekologiyaya ziyan vurmaq baxımından Azərbaycanı ittiham edə biləcək ən son ölkədir.

**Millət vəkili Sahib Alıyev "Şərq"ə bildirib ki, İran parlamentinin üzvü Fədahüseyn Malikinin Xəzərin çirklənməsi haqda dedikləri cəfəngiyyatdır. Deputatın sözlərinə görə, bu açıqlama Malikinin qərəzliliyi ilə yanaşı, ekologiya barədə anlayışının olmamasını, SEPAH-ın tezisləri üzrə çıxış etməsini göstərir:**

"Xəzəryanı dövlətlər arasında dənizin ekologiyasına ən həssaslıqla yanaşan ölkə ilk növbədə Azərbaycandır. Tehran Konvensiyasına əməl etməyən rejim Tehrandır. Bu rejim ekologiya məsələlərində necə "həssas" olduğunu quruyan Urmiya gölündən yaxşı bilirik. Bunun qarşısını almağa çağıranların bir hissəsinin hələ də zindanlarda yatdıqlarından da xəbərdarıq. İran prezidentinin COP29-a qatılmaması sözügedən rejimin təkcə Azərbaycana yox, həm də ekologiyaya yanaşmasını ortaya qoyur. Maliki iddia edir ki, guya İsrail rəsmiləri COP29-da olduqlarına görə İran Prezidenti Bakıya gəlməyib. Maraqlıdır, bəs onda BMT-nin İsrail rəsmiləri də qatılan digər tədbirinə İran prezidenti niyə getmişdi?! Özü də həmin tədbir "böyük şeytan" adlandırdıqları ABŞ-də keçirilirdi. Maliki İran prezidentinin COP29-a gəlməmə səbəbinin Fransa, Niderland və Ermənistanla eyni olduğunu söyləsəydi, açıqlaması daha inandırıcı təsir bağışlayardı".

İsmayıl Qocayev



**Ermənistan hökumətində istefa dalğası başlayıb. Ölkənin infrastruktur naziri və Dövlət Gəlirləri Komitəsinin rəhbərindən sonra daxili işlər naziri də istefa verib.**

# Ermənistanda siyasi böhran gözlənilmir

## Baş nazir ona sadiq olmayan, addımlarına əngəl törədən fiqurların hakim komandadan uzaqlaşdırılmasını davam etdirəcək

Ardınca İstintaq Komitəsinin rəhbəri Argişti Keremyan həmkarlarından "nümunə" götürüb. Ermənistan Ali Məhkəmə Şurasının sədri Karen Andreasyan və Korrupsiyaya qarşı Komitəsinin sədri Sasun Xaçaturyan da istefa verənlər arasındadır. Bütün bunların Paşinyanın Nazirlər Kabinetinin iclasında təhlükəsizlik qüvvələrinə verdiyi son töhmətdən sonra baş verməsi diqqət çəkib. Erməni deputat Tiqran Abramyana görə, Ermənistan Baş naziri Nikol Paşinyanın təşəbbüsü ilə baş verən kütləvi istefalar seçkiqabağı prosesin məntiqi kimi anlaşılmalıdır. Onun fikrincə, hakimiyyət bu yolla yeni imic ortaya qoymağa çalışır. Yerli media və mütəxəssislər isə Nikol Paşinyanın erkən parlament seçkilərinə hazırlaşdığını iddia edir.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri Samir Hümbətov bildirib ki, Paşinyan hökumətinin daxilində əvvəldən narazı qruplar var idi. Ekspertin sözlərinə görə, Paşinyanın COP29-a görə Bakıya gəlməməsinin arxasında da bir-birinə qarşı duran qruplaşmalar dayanır:**

"Hökumət daxilində Paşinyana ciddi təzyiqlər var. Paşinyan komandası içərisində üç əsas qrup var. Biri rusyönlü, digəri Qərbmeyilli, üçüncüsü isə ultramillətçilər, revanşist qüvvələrdir. Bu qruplar daxilində gedən daxili mübarizə Paşinyanın hökuməti idarə etməsində ciddi problemlər yaradır. Hansı tərəfin mövqeyi daha ağırdırsa, digər tərəfə təsir etməyə çalışır, sıxışdırma siyasətini aparır. Paşinyanın müxtəlif bəhanələrlə həmin şəxsləri hakimiyyətdən uzaqlaşdırmasının arxasında bu dayanır".

**"Paşinyanın bu şəxslərlə mübarizəsinin nəticə verib-verməyəcəyini zaman göstərəcək"**

**Analitikin fikrincə, vəzifədən uzaqlaşdırılan şəxslər Azərbaycanla sülh müqaviləsinin imzalanmasına da maneələr, əngəllər törədə də bilərlər:**

"Paşinyanın bu şəxslərlə mübarizəsinin nəticə verib-verməyəcəyini zaman göstərəcək. İstənilən halda baş nazir ona sadiq olmayan, addımlarına əngəl törədən fiqurların hakim komandadan uzaqlaşdırılmasını davam etdirəcək. Bunun idarəetmədə hansısa siyasi böhrana səbəb olacağını düşünmürəm".

İsmayıl

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**




# Birləşmənin ən uğurlu modeli tapılıb

## Türk Dövlətləri Təşkilatının ətrafında yaranmış vəziyyət bütün türk dünyasını məmnun edəcək səviyyədədir

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin liderlərinin 12-ci sammiti Azərbaycanda keçiriləcək. Bu barədə qərar Qırğızıstanın paytaxtında keçirilən TDT Dövlət Başçıları Şurasının 11-ci iclasının yekunları üzrə qəbul edilib. Bəyannaməyə əsasən, təşkilat ölkələrinin liderləri 2025-ci ildə rəsmi sammitin Azərbaycanda və qeyri-rəsmi sammitin isə Macarıstanda keçirilməsini təsdiqləyiblər.**

Ötən gün Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında COP29 çərçivəsində "yaşıl enerji"nin inkişafı və keçidi sahəsində strateji tərəfdaşlıq üzrə hökumətlərarası saziş imzalanıb. Bu saziş Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında qardaşlıq, dostluq və strateji tərəfdaşlıq əlaqələrinin təzahürüdür. Həmçinin regionda "yaşıl enerji" dəhlizinin yaradılması, inteqrasiya olunmuş elektrik enerjisi bazarlarının inkişafı və bərpa olunan enerjinin digər regionlara ixracının asanlaşdırılması üçün güclü təməl yaradır. Nəzərdə tutulur ki, birgə müəssisə yaradıldıqdan sonra Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin inteqrasiyası üzrə tədqiqat işlərinə başlanılacaq.

2009-cu ildə Naxçıvan Sazişi ilə əsası qoyulan TDT sürətlə öz üzvləri arasında qarşılıqlı etimadı, sülhü və rifahı təşviq etmək üçün dinamik foruma çevrilib. Azərbaycan türk dövlətləri arasında daha sıx əlaqələri gücləndirmək məqsədi daşıyan strateji təşəbbüsə rəhbərlik edir. Türk Dövlətləri Təşkilatı (TDT) ətrafında cərəyan edən bu təşəbbüs təkcə regional əməkdaşlıq deyil, vahid türk dünyasını yaratmaq üçün uzaqgörən səydir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan TDT-nin beynəlxalq məsələlərdə rolunu artırmaq üçün səylərini ikiqat artırıb. Prezidentin öhdəliyi inauqurasiya nitqi zamanı vurğulandı və burada TDT-nin əsas diplomatik prioritet kimi strateji əhəmiyyəti qeyd olundu. "Biz Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritet məsələdir" deyən Prezident Azərbaycanın xarici siyasətinin aydın yol xəritəsini işarə etdi. Əvvəlcə dörd təsisçi üzv arasında əməkdaşlıq forumu kimi başlayan TDT, indi əlavə müşahidəçilərlə yeddi üzv dövlətdən ibarət olan nüfuzlu təşkilata çevrilib. Bu birlik təkcə siyasi və iqtisadi ittifaqı deyil, həm də türk irsi və dəyərlərinin mədəni və sosial birləşməsini təmsil edir. TDT vasitəsilə Azərbaycan və onun tərəfdaşları regional və qlobal çağırışların həlli üçün öz kollektiv potensialından istifadə etmək məqsədilə birlik və güc hekayəsi yaradırlar. Azərbaycan özünü TDT çərçivəsində əsas təşəbbüskarlardan biri kimi göstərir və ölkənin strateji təşəbbüsləri sadəcə dövlətlərin koalisiyasını qurmağa yox, türk birliyinin formalaşmasında həlledici rol oynamağa və əhəmiyyətli bir güc blokuna çevirməyə çalışır. TDT beynəlxalq arenada getdikcə daha çox nüfuz qazanır və özünü türk xalqlarının mənafeyini və hüquqlarını qlobal miqyasda müdafiə edən mərkəz kimi fəaliyyət göstərir. Təşkilat birgə səyləri ilə regionda sülh və sabitliyi təşviq etmək, ekstremizmə qarşı mübarizə aparmaq və sosial-iqtisadi inkişafı dəstəkləmək məqsədi daşıyır. Ticarət əlaqələrini gücləndirməklə, investisiya imkanlarını asanlaşdırmaqla və mədəni və təhsil mübadilələrini təşviq etməklə TDT nəinki üzv dövlətlər arasında əlaqələri dərinləşdirir, həm də bir-biri ilə daha sıx bağlı və çiçəklənən regiona töhfə verir. Üzvlərinin müxtəlif sahələrdə səylərini birləşdirməyə davam edən təşkilat gələcəkdə türk dünyasının kollektiv istəklərini və rifahını müdafiə edərək daha da mühüm rol oynamağa hazırlaşır. Ortaq irsə və qarşılıqlı maraqlara söykənən bu birlik və güc baxışı TDT-ni qlobal arenada nəhəng bir ittifaq kimi irəli aparır. Avrasiyanın inkişaf edən geosiyasi mənzərəsində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin ortaq baxışı və diplomatik səyləri ilə sürətlə əhəmiyyətli bir güc bloku kimi meydana çıxır. Azərbaycanın rəhbərlik etdiyi və xüsusilə Türkiyə ilə strateji müttəfiqliklər tərəfindən dəstəklənən TDT təkcə regional inteqrasiyanı təşviq etmir, həm də özünü qlobal diplomatiyada nəhəng bir qüvvə kimi göstərir. TDT-nin özünə inamı və qabiliyyəti artmaqda davam etdikcə, onun qlobal məsələlərdə rolunun genişlənəcəyi və türk dünyası tarixində yeni səhifənin açılacağı gözlənilir. Türk dünyasının gələcəyi, TDT-nin himayəsi altında, artan nüfuz və nüfuzdan biri kimi görünür və onu beynəlxalq birliyin ayrılmaz hissəsinə çevirir.

**Azərbaycanın Türk Dövlətləri Təşkilatı və üzv dövlətlərlə əməkdaşlığını "Şərq"ə dəyərləndirən politoloq Elçin Xalidbəyli deyib ki, Türk Dövlətləri Təşkilatının ətrafında yaranmış vəziyyət bütün türk dünyasını məmnun edəcək səviyyədədir. Ekspert vurğulayıb ki, son illərdə türk dünyasına aid dövlətlər nəhayət ki, birləşmənin ən uğurlu modelini tapdılar:**

"Türk Dövlətləri Təşkilatı özünün intensiv inkişaf mərhələsinə qədəm qoyub. Təbii ki, dünyada bəzi siyasi dairələr Türk Dövlətləri Təşkilatının belə inkişaf mərhələsinə qədəm qoyması və inkişaf perspektivlərinə sahib olmasından ciddi şəkildə narahatdır. Çünki TDT-yə daxil olan ölkələr olduqca münbit təbii sərvətlərə və iqtisadi inkişaf resurslarına malik ölkələrdir. Belə ölkələrin vahid qurumda birləşməsi dünyada yeni siyasi, iqtisadi iradə mərkəzinin yaranmasına səbəb ola bilər. Bu da Qərbdə bəzi siyasi dairələrin qətiyyən xoşuna gəlmir, onların maraqlarına cavab vermir. Hətta belə mülahizələr mövcuddur ki, Türk Dövlətləri Təşkilatı yaxın gələcəkdə Avropa Birliyinə alternativ ola biləcək səviyyədə inkişaf mərhələsinə qədəm qoyacaq".

**Həmsöhbətimizin fikrincə, Türk Dövlətləri Təşkilatının daha ciddi strukturlaşması və vahid güc mərkəzi kimi formalaşması istiqamətində atılan addımlar təqdirəlayiqdir:**

"Bu prosesdə Azərbaycan avanqard rolunu oynayır. Azərbaycan dövləti, Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatını Türk dünyasının ümumi evi, ailəsi kimi təqdim edir və tamamilə haqlıdır. Yaxın gələcəkdə Türk Dövlətləri Təşkilatının necə ciddi təsir gücünə malik olacağının şahidi olacaq. Bu baxımdan Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerji ilə bağlı imzalanmış saziş də böyük önəm daşıyır. Çünki üç önəmli türk dövlətinin öz yaşıl enerji resurslarını vahid mərkəzdə birləşdirərək dünyaya, xüsusilə Qərb bazarlarına çıxarması yaxın gələcək üçün yeni iqtisadi inkişaf sahələrinin perspektivlərini ön plana çıxarır. Belə anlaşılır ki, Türk Dövlətləri Təşkilatına daxil olan ölkələr dünyaya yeni enerji resurslarının çıxarılması istiqamətində də avanqard rol oynamaq imkanlarına malikdirlər. Türk Dövlətləri Təşkilatının yaxın gələcək üçün perspektivlərinə yalnız məmnunluqla və ümidverici perspektivlər üzərindən baxmaq üçün münbit şərait mövcuddur".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# 4 min vətəndaşımızın taleyi naməlumdur

## "Ermənistanın hərbi-siyasi rəhbərliyi itkin düşmüş azərbaycanlılarla bağlı məlumatların üzə çıxarılmasından qorxur"

**BMT Baş Assambleyasının 3-cü Komitəsində Azərbaycan tərəfindən irəli sürülmüş "İtkin düşmüş şəxslər" adlı qətnamə konsensusla qəbul edilib.**



Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi tərəfindən irəli sürülmüş qətnamə layihəsi üzrə bir ay ərzində üzv dövlətlərlə aparılmış intensiv danışıqlar nəticəsində layihənin mətni razılaşdırılıb. Qətnaməyə 56 ölkə həmmüəllif qismində qoşulub. Qətnamənin mətnində minaların mövcudluğunun itkin düşmüş şəxslərin qalıqlarının aşkarlanması üzrə əməliyyatlara yaratdığı maneələr də öz əksini tapıb. Mətndə əlaqədar dövlətlərin insan qalıqlarının təhlükəsiz axtarışı üçün əməkdaşlıq etmək çağırışları öz əksini tapıb.

**Sözügedən sənədin məhz Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə qəbul olunduğunu xatırladan Azərbaycan Həmrəylik Komitəsinin sədri Əlisahib Hüseynov "Şərq"ə açıqlamasında qeyd edib ki, Azərbaycanın irəli sürdüyü sözügedən qətnamə layihəsi yekdilliklə, konsensusla qəbul edilib:**

"BMT Baş Assambleyasının 3-cü Komitəsində "İtkin düşmüş şəxslər haqqında" qətnamənin qəbul edilməsi müharibə və münaqişə qurbanlarının, o cümlədən itkin düşən şəxslərin taleyinə aydınlıq gətirilməsi baxımından bütün dünya birliyi üçün olduqca əhəmiyyətli hadisədir.

Layihənin yekdilliklə qəbul edilməsi isə həm Azərbaycanın beynəlxalq nüfuzunun artmasının göstəricisidir, həm də dünyanın müxtəlif ölkələrinin dini-etnik zəmində münaqişələr və böyük müharibə fəlakətləri ilə üzləşməsi baxımından itkin şəxslər problemi həqiqətən də bütün dünya ictimaiyyəti üçün aktual məsələyə çevirir.

Müharibə və münaqişələrdən əziyyət çəkən, soyqırımlarına məruz qalan xalqların sırasında isə heç şübhəsiz ki, Azərbaycanın adı ilk növbədə qeyd olunmalıdır. Çünki istər son 200 ildə, istərsə də keçmiş SSRİ-nin dağılmasından sonrakı dönəmdə Azərbaycan xalqı çarizmin və bolşevizmin havadarlığı etdiyi erməni-daşnak qatilləri tərəfindən davamlı qətliamlara, terrora, işğalçı zorakılığa, deportasiyalara məruz qalıb.

Birinci Qarabağ müharibəsi dövründə Ermənistanın işğalçı siyasətinin qurbanı olmuş və itkin düşmüş şəxslərin sayı isə ağlasığmaz dərəcədə çox olub. Hazırda 4 minə yaxın Azərbaycan vətəndaşının taleyi naməlum olaraq qalır. Azərbaycan hökumətinin həm Ermənistana, həm də beynəlxalq təşkilatlara dəfələrlə müraciətlərinə baxmayaraq, rəsmi İrəvan sözügedən itkin vətəndaşlarımızın sonrakı taleyi barədə məlumatları hələ də Azərbaycana təqdim etməkdən imtina edir".

**Ermənistanın bu cür qeyri-humanist, insanlığa zidd davranışının heç bir məntiqi izahı olmadığını deyən Ə.Hüseynov hesab edir ki, Ermənistan tərəfi Birinci Qarabağ müharibəsi dönəmində törətdiyi hərbi cinayətləri bu gün də siyasi quldurluq formasında davam etdirir:**

"Ermənistanın həmin məlumatları Azərbaycan tərəfinə təqdim etməkdən yayınmasının başqa bir səbəbi isə ifşa olunmaq qorxusundan qaynaqlanır. Bəli, Ermənistanın hərbi-siyasi rəhbərliyi itkin düşmüş azərbaycanlılarla bağlı məlumatların üzə çıxarılmasından qorxur. Çünki Birinci Qarabağ müharibəsi zamanı Ermənistanın hərbi canilərinin azərbaycanlılara qarşı yol verdikləri vəhşiliklərin üzə çıxması və ictimailəşməsi Paşinyan hökumətinin yaratmağa çalışdığı "sülh göyərçini" obrazının puça çıxmasına və Ermənistanın barbar dövlət kimi bütün dünyada rüsvay olmasına gətirib çıxara bilər. Lakin Paşinyan "sülh"demaqogiyası ilə məşğul olmaq əvəzinə, öz ölkəsinin yaxın keçmişdəki qanlı təcrübəsi ilə üzləşməyi seçməli və itkin düşmüş azərbaycanlılarla bağlı həqiqətləri təqdim etməlidir. Mina xəritələrini və itkin düşmüş şəxslərlə bağlı məlumatları Azərbaycana təqdim etməkdən yayınan Ermənistan rəhbərliyinin sülhdən danışması əsl riyakarlıqdır. Ancaq "İtkin düşmüş şəxslər haqqında" qətnamənin BMT Baş Assambleyası tərəfindən qəbul edilməsi Ermənistanın bəhanələrinə son qoya bilər. Ermənistan rəhbərliyi itkin düşmüş azərbaycanlıların taleyi ilə bağlı öz məsuliyyətini dərk etməlidir".

**Şəymən**




# Ölkəyə 160 elektrikli avtobus gətirilib

## Hökumət sərnişindaşıma probleminin birdəfəlik həllinə çalışır

**"2030-cu ilədək paytaxtda bütün ictimai nəqliyyat vasitələrinin elektrik mühərrikli analoqları ilə əvəzlənməsi nəzərdə tutulub".**

Bunu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev söyləyib.

Nazir əlavə edib ki, Azərbaycan yaxın zamanlarda dayanıqlı ekosistemin yaradılması barədə öhdəlik götürüb:

"Biz 100 kilometr mikromobil zolaqların çəkilməsini nəzərdə tutmuşuq. 160 ədəd elektrikli avtobus ölkəyə gətirilib. Bunların sayı artırılacaq".

**Nəqliyyat eksperti Aslan Əsədov "Şərq"ə söyləyib ki, tədbirlərdən göründüyü kimi, hökumət avtobus sərnişindaşıma probleminin birdəfəlik həllinə qərar verib:**

"Qeyd edim ki, elektrik mühərrikli avtobuslar ekologiyanı qoruyur, havanı çirkləndirmir. Digər avtobuslardan fərqli olaraq gün ərzində yanacaqdoldurma məntəqələrinə girmə ehtimalı sıfıra bərabərdir. Bir sözlə, üstünlükləri çoxdur. Həmçinin aldığım xəbərlərə görə, bunun üçün sahibkarlara 150 min manat subsidiya ayrılıb. Bu da sevindirici qərardır. Yeni trolleybusların istifadəyə verilməsi və şəraitin yaradılması əlavə perspektiv və edir. Həmçinin ölkəyə dividendlər gətirə bilər. Bunu sərnişinlərin gediş-gəlişini, məmnunluğunu təmin etmək üçün bir addım kimi hesab etmək olar. Ona görə də birgə işlər aparılarsa, yaxşı nəticələr almaq mümkündür".

**Nəzrin Vüqarqızı**

# Azərbaycan beynəlxalq platformalarda Ermənistanı küncə sıxışdırır

## Ermənistan ekologiyaya fikir vermədən ərazilərimizdə vəhşiliklər törədib



**Azərbaycan 2024-cü il noyabr 19-da Enerji Xartiyası Müqaviləsi çərçivəsində və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq, Ermənistana qarşı Haaqada yerləşən Daimi Arbitraj Məhkəməsinə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən çoxsaylı pozuntuların təfərrüatını əks etdirən əsas iddia sənədini təqdim edib.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb. Bildirilib ki, bu iddia sənədi 2023-cü il fevralın 27-də Azərbaycanın Ermənistana Arbitraj haqqında Bildiriş göndərdiyi zaman başlamış beynəlxalq məhkəmə prosesi çərçivəsində son inkişafdır. Arbitraj məhkəməsi 2023-cü il sentyabrın 8-də təsis edilib və Azərbaycanla Ermənistan arasında ilk prosessual görüş 2024-cü il yanvarın 12-də keçirilib. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin otuz ilə yaxın qanunsuz işğalı zamanı Azərbaycanın bu ərazilərdə öz enerji resurslarına çıxışına və ya onların inkişaf etdirilməsinə mane olub. Bunun əksinə, Ermənistan həmin resurslardan öz mənfəəti üçün istifadə edib. Ermənistanın beynəlxalq hüquq normalarını pozma halları arasında, xüsusilə onun onilliklər ərzində Azərbaycanın əhəmiyyətli bərpa olunan enerji layihələrinə çıxışına və ya onlardan faydalanmasına icazə verməkdən imtina etməsini qeyd etmək olar. Bunlara əvvəllər işğal olunmuş Ağdərə rayonundakı Sərsəng Su Anbarında yerləşən Tərtər Su Elektrik Stansiyası, İranla sərhəddə, Azərbaycanın keçmiş işğal olunmuş Cəbrayıl rayonunda yerləşən Xudafərin və Qız Qalası su elektrik stansiyaları layihələri, həmçinin əvvəllər istifadə olunmamış enerji potensialı, hidroenergetika daxil olmaqla bərpa olunan enerji mənbələri, habelə digər resurslar daxildir. Ermənistan tərəfi qanunsuz işğal dövründə Tərtər Su Elektrik Stansiyasını istismar edən qurumları lisenziyalaşdırıb və tənzimləyib, bu enerji mənbəyini qanunsuz olaraq öz daxili elektrik şəbəkəsi ilə əlaqələndirib və əlavə enerjini daxili enerji istehlakı üçün Ermənistana yönləndirib. Bundan əlavə, Ermənistan Azərbaycanın Xudafərin və Qız Qalası layihə sahələrinə girişinə mane olmaqla bu mühüm hidroenergetika layihələrinin tamamlanmasını 30 il gecikdirib və Azərbaycanın bərpa olunan enerji sektorunun inkişafına maneçilik törədib. Azərbaycan öz enerji resursları üzərində suveren hüquqlarının Ermənistan tərəfindən pozulması, o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrinin Ermənistan tərəfindən qanunsuz istismarına və zərər vurulmasına görə təzminat tələb olunması fəaliyyətini davam edəcəkdir.

**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin (SHAM) sədri, politoloq Xəyal Bəşirov isə ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanın II Qarabağ müharibəsindən sonra Ermənistanın törətdikləri cinayətlərlə bağlı beynəlxalq hüquqi məhkəmə platformalarında iddialar qaldırıb:**

”Azərbaycanın bundan əvvəl də həmin istiqamətdə çoxsaylı addımları olub. Məsələn, II Qarabağ müharibəsində Ermənistanın Azərbaycanın mülki şəhərlərinə, vətəndaşlarına qarşı törətdiyi cinayətlər və etnik təmizləmə ilə bağlı müraciətlərimiz var. Eyni zamanda torpaqlarımız işğal altında olan zaman ermənilər həmin ərazilərdə ”Urbisid”, ”Ekosid”, ”Kultursid” cinayətləri törədiblər. Həmçinin torpaqlarımızda Ermənistan enerji resurslarımıza qarşı hüquqazidd əməllər həyata keçirib. Vətən savaşından sonra bizim həmin ərazilərdə günəş, külək, hidroelektrik qurğularını qurmağımız, alternativ, bərpa olunan yaşıl enerjiylə bağlı atdığımız addımlar göstərdi ki, torpaqlarımız alternativ və bərpa olunan enerjiylə çox zəngindir. Torpaqlarımız işğal altında olan zaman biz həmin enerjilərdən istifadə edə bilmədik. Bunun əsas səbəbkarı isə Ermənistanın işğalçılıq siyasəti olub. Ona görə də Azərbaycan 2023-cü ildə Ermənistana qarşı Daimi Arbitraj Məhkəməsinə müraciət edib”.

Politoloq söyləyib ki, **həmin iddiaya baxılması və onun araşdırılması üçün uzun müddət vaxt sərf olunacaq:**

”Çünki burada söhbət 20 faiz ərazidən və oradakı çox zəngin külək, günəş enerjisindən gedir. Bunun araşdırılması üçün isə kifayət qədər vaxt, resurs və ekspertlər lazımdır. Azərbaycanın əlində mötəbər sübutlar mövcuddur. Həmin dəlilləri mərhələri şəkildə məhkəməyə təqdim edirik. Məhkəmənin araşdırmasından və qərarından sonra ermənilərin vəhşilikləri hər kəsə bəlli olacaq. Ermənistan ekologiyaya fikir vermədən daha çox resurslar qazanmaq üçün ərazilərimizdə vəhşiliklər törədib. Müxtəlif çaylarımıza və meşələrimizə böyük ziyan dəyib. Ermənistanın enerjiylə bağlı Azərbaycana vurduğu genişmiqyaslı zərərin dəqiq miqyası müəyyənləşdiriləcək. Daha sonra Ermənistan bununla bağlı Azərbaycana kompensasiya ödəməli olacaq. Ermənilərin cinayətləri sübuta yetirildikdən sonra qanunazidd addımları törədən şəxslər, birbaşa prosesdə iştirak edənlər məsuliyyətə cəlb ediləcək”.

**Şahanə Ziyad**




# "Nar" uşaqlar üçün təhlükəsiz rəqəmsal mühitin yaradılmasına töhfə verir

**Regionlarda sosial məsuliyyət təşəbbüsləri ilə seçilən ”Nar” Regional İnkişaf İctimai Birliyi (RİİB) ilə birgə 20 Noyabr - Ümumdünya Uşaq Hüquqları Gününə həsr edilmiş yeni layihəyə start verib. Layihə çərçivəsində Naxçıvan, Bakı, Gəncə, Lənkəran və Qəbələdə bir ay ərzində uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin edilməsi ilə bağlı geniş maarifləndirmə tədbirləri həyata keçiriləcək.**

İlkin mərhələdə ”Uşaqların zərərli və təhlükəli məlumatlardan qorunması” mövzusunda onlayn görüş keçirilib. Bu tədbirdə Naxçıvan, Bakı, Gəncə, Lənkəran və Qəbələdəki 10 məktəbdən VII-XI sinif şagirdləri və müəllimlər iştirak ediblər. Dövlət rəsmiləri və mütəxəssislər görüş zamanı rəqəmsal resurslardan düzgün və təhlükəsiz istifadə qaydaları barədə ətraflı məlumat verib və iştirakçıların suallarını cavablandırıblar.

Qeyd edək ki, layihə Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası və ADA Universitetinin tərəfdaşlığı ilə həyata keçirilir.

”Nar” bu təşəbbüslə elm və təhsilə verdiyi dayanıqlı dəstəyin bir hissəsi olaraq, uşaq hüquqlarının qorunması və rəqəmsal mühitdə təhlükəsiz davranış qaydalarının öyrədilməsi işinə mühüm töhfə verir. Xüsusilə regionlarda həyata keçirilən bu layihə gələcək nəsillərin təhlükəsiz rəqəmsal mühitdə böyüməsi üçün vacib platforma yaradır.



”Medservis” özəl tibb mərkəzinə ağır itki üz verib. Tibb mərkəzinin dəyərli həkimi

**Quliyev Teymur**

vəfat edib. O, sadəcə bir həkim deyil, həyatımıza toxunan, hər birimizin qayğısını içdən və ürəkdən hiss edən bir dost idi. Onun insanlığa, xəstələrinə və həmkarlarına göstərdiyi qayğı və peşəkarlıq heç vaxt unudulmayacaq. Mərhumun yaxınlarına və bütün ”Medservis” ailəsinə başsağlığı diləyirik. Ruhu şad olsun!

**Allah rəhmət etsin!**

**Elan**

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Abbasov İlkin Nuru oğluna verilmiş xidməti vəsiqə № 1034768A itdiyi üçün etibarsız sayılır.

Nurəddinov Aydın Rasim oğluna məxsus (şəxsiyyət vəsiqəsi AA 3683247) Hərbi bilet itdiyi üçün etibarsız sayılır.

# Tramp gəldi, "Bitcoin"in qiyməti artdı

## Yaxın aylarda kripto bazarında daha böyük artımın olması da istisna deyil

**”Bitcoin” yeni tarixi rekorda imza atıb. ”Binance” platformasının ticarət məlumatlarına əsasən, ”Bitcoin”in qiyməti 93,856 dollara çataraq tarixi rekord müəyyən edib.**



Hazırda bitkoin 1,75 trilyon dollarlıq bazar dəyəri ilə gümüşü geridə qoyaraq dünyanın 8-ci ən dəyərli sərvətinə çevrilib.

Ekspertlər isə son günlər sürətlə bahalaşan kriptovalyutanın yaxın zamanda 100,000 dollara çatacağı və artım tempini qoruyacağı barədə proqnozlarını davam etdirirlər.

Buna əsas kimi də ABŞ-də yeni seçilmiş Prezidenti Donald Trampın gələcək administrasiyasının kriptovalyuta qaydalarını yumşaldacağına dair vədlərini göstərirlər.

**İqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, bitkoin bazarının kapitallaşması ilə bağlı bir neçə iri şirkət tərəfindən böyük yatırımlar edilib. Bu da bazarın aktivləşməsinə və qiymətlərin bahalaşmasına gətirib çıxarıb. Ekspert hesab edir ki, bu bahalaşma qlobal iqtisadiyyatın gələcəyi ilə bağlı investorlarda yaranan şübhələrdən də qaynaqlanan bir davranışın nəticəsidir:**

”Bitkoin hazırda iqtisadi əsaslara görə artmır. ABŞ-nin bu məsələ ilə bağlı mövqeyinin dəyişməsi ajiotaj yaratdı, bu da bitkoinin qiymətinin qalxmasına səbəb oldu. Ancaq bu prosesin hansı mərhələyə kimi davam edəcəyini dəqiq proqnozlaşdırmaq olmur. Texniki analizlər bitkoinin qiymətinin hətta 100 min dollar həddini keçəcəyini də söyləməyə əsas yaradır”.

**”Bitcoin”in bahalaşmasını ”Şərq”ə şərh edən iqtisadçı Xalid Kərimli isə deyib ki, ABŞ-də Donald Trampın qələbəsindən sonra kripto bazarında yüksəliş tendensiyası davam edir. Ekspert hesab edir ki, əsas kriptovalyutanın bahalaşması Amerika Birləşmiş Ştatlarında keçirilən prezident seçkilərində Donald Trampın qalib gəlməsi və Respublikaçıların Amerikada yenidən hakimiyyətə gəlməsi ilə əlaqədardır:**

”Tramp hələ seçki kampaniyası ərəfəsində, iyul ayında ”Bitcoin” biznesinin liderləri ilə görüşərək kripto sənayesinə böyük dəstək verəcəyini, hətta ABŞ-ni ”planetin kripto paytaxtı” edəcəyini vəd etmişdi. O, kriptovalyuta istehsal edənlərə qarşı cinayət təqibi və sıxışdırmaları aradan qaldıracağını, ”Birja”nın ”Bitcoin” əleyhinə olan rəhbərliyini kənarlaşdıracağını, eyni zamanda bitkoin sahəsində qanunvericiliyi təkmilləşdirəcəyini qeyd etmişdi.

Onun bu vədləri də kripto sahəsindəki investorların ümidlərini artırıb və bazarda coşqu yaradıb. Trampın komandası da eyni fikirdə olduğu üçün seçkilərdə Trampın qalib gəlməsindən sonra ”Bitcoin”in qiyməti iki dəfədən çox bahalaşıb.

Sözsüz ki, yaxın aylarda kripto bazarında daha böyük artımın olması da istisna deyil. Lakin bahalaşmanın hansı mərhələyə kimi davam edəcəyini demək, bu sahədə konkret proqnoz vermək çətin məsələdir. Bu artıq falçılıq kimi bir şey olar”.

**Şəymən**

# Onkoloji xəstələr icbari tibbi sığortaya cəlb olunmalıdır

## Eldəniz Əmirov: “Ən dəhşətli xəstəliyə düçar olanları sığortadan kənarda saxlamaq olmaz”



**Uzun müddətdir ictimaiyyət icbari tibbi sığorta ilə əhatə olunan cərrahi əməliyyatlara qoyulan say məhdudiyyətinin aradan qaldırılacağına ümid edir.**

Millət vəkilləri bu məsələ ilə bağlı mütəmad olaraq parlamentdə öz təkliflərini versə də, ortada real nəticə yoxdur. Parlamentarilər hesab edir ki, təxirə salınmadan onkoloji xəstəliklərin icbari tibbi sığorta ilə əhatə edilməsi təmin olunmalıdır, dərman vasitələri sığorta ilə qarşılanmalıdır.

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlamentin ötən iclasında bu məsələyə yenidən toxunub. Onkoloji xəstələrin icbari tibbi sığortaya cəlb olunmamasını qəbuledilməz hal kimi dəyərləndirən millət vəkili qeyd edib ki, insanlar arasında ürək-damar patologiyasından sonra ən çox tələfat onkoloji xəstəliklər sırasındadır:**

”Onkoloji xəstəliklərin icbari tibbi sığortaya cəlb olunmamasını anlamaq olmur. Onkoloji xidmətə ayrılan vəsait 50 milyon civarında qalıb. Hər gün bu xəstələrlə qarşılaşan bir insan kimi deyim ki, bu xəstələrin böyük qrupunu adekvat müalicə etməkdən məhrumuq. Onkoloji xəstələrin müalicəsinə çox vəsait tələb olunur. Razıyam. Amma ilk olaraq, bu xəstələrin müalicəsində istifadə olunan dərmanları icbari tibbi sığorta öz öhdəsinə götürməlidir, bu, ilk addım olmalıdır. İTSDA 5 ildir yaranıb, amma onkoloji xəstələrin icbari tibbi sığortaya cəlbi üçün addımlar atılmayıb, bu məsələ çox uzanır”.

**İqtisadçı-ekspert Eldəniz Əmirov isə ”Şərq”ə açıqlamasında bildirib ki, onkoloji xəstəliklər insanlar arasında sadəcə tələfata səbəb olmur. Belə xəstələrin özləri və doğmaları tələfat baş verənə qədər sarsıntı içində yaşayır:**

”Bu sarsıntının üzərinə də müayinə və müalicə proseslərinin baha olması ailələrə ciddi maddi çətinliklər yaşadır. Bu səbəbdən çox insanlar ilkin müayinədən, eləcə də müalicədən uzaq qaçıb, taleyini tamlıqla ilahinin ixtiyarına buraxaraq, evində sözlə ifadəsi olmayan üzüntülərlə yaşayır. Buna görə də onkoloji xəstəliklərin icbari tibbi sığortaya cəlb olunması məsələsinə ciddi baxılmalıdır. Başa düşürəm, bu proses bir çox xəstəliklərlə müqayisədə icbari tibbi sığortaya daha çox vəsait hesabına başa gələcəkdir. Amma çox vəsait lazımdır deyə, ən dəhşətli xəstəliyə düçar olanları sığortadan kənarda saxlamaq olmaz. Bir vaxtlar ölkəmizdə icbari tibbi sığortanın tətbiqi məsələsi gündəmə gələn zaman çox vəsait lazım olacağını səbəb gətirərək bunu bir müddət uzatdıq. Amma şükürlər olsun ki, bu sistem ölkəmizdə uğurla tətbiq edilməyə başladı. Müalicə üçün 100 manatı olmayanlar ucqar kəndlərdən paytaxta gəlib 10 min manatlıq əməliyyatları 1 manatsız etdirə bilir. İnsanlar bu gün ölkəmizdə icbari tibbi sığortanın verdiyi fürsətlərdən sevinclə istifadə edə bilir. Tibbi personal da (böyük əksəriyyət) bundan çox məmnundur. Demək ki, bir şeyi çox istəyəndə biz bunu edə bilirik. Odur ki, mütləq şəkildə onkoloji xəstəliklərin icbari tibbi sığortaya cəlb olunması istiqamətində real addımlar atılmalıdır. Əgər mövcud vəsait bu xəstəliyin müalicəsində A-dan Z-yə hər şeyi qarşılmaq üçün imkan vermirsə, onda heç olmasa, nədənsə başlamaq lazımdır. Sonrakı hər il isə sığorta zərfini genişləndirmək olar”.

**Şəymən**

Təsisçi: “Şərq Media Qrup” MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şahanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2688



## Alpinistlər itkin düşdü

Əkizlərin axtarışı davam edir

**Türkiyədə itkin düşmüş belaruslu əkiz bacılar Valentina və Marya İvankovaların axtarışları davam edir.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən xəbər verir ki, itkiş düşən əkiz bacılar alpinistdirlər. Onlar 5 gün əvvəl Aladağların Yedigöllər bölgəsinə gəzintiyə çıxıblar və 2 gündən sonra geri dönəcəklərini bildiriblər. Lakin 2 gün keçsə də, bacılar geri dönməyib və onlarla əlaqə saxlamaq da mümkün olmayıb. Bundan sonra əməliyyat-axtarış tədbirlərinə başlanılıb. AFAD və Jandarma Axtarış-Xilasetmə qrupu bölgəyə göndərilib. Ancaq axtarışlar hələ ki bir nəticə verməyib. Hava qaralınca yarımçıq qalan iş ertəsi gün səhərin ilk saatlarında yenidən başlayıb. Aladağların bir hissəsinin sərhədləri daxilində qaldığı Kayseridə bu bölgədəki işlərə AFAD, Jandarma Axtarış-Xilasetmə və Yəhyalının həvəskar alpinistlərindən ibarət qrup da qatılıb. Niğde Jandarma Axtarış-Xilasetmə və AFAD qrupları Sokullupınar marşrutu üzərində Kızılkaya zirvəsi və Emli vadisi bölgəsində işlərini davam etdirir. Ankaradan havaya qalxan pilotlu kəşfiyyat təyyarəsi də bölgədə səmadan çəkiliş aparır. Alpinist bacıların axtarışlarına Belarus konsulluğunun noyabrın 19-da Niğde bələdiyyəsinə məlumat verməsindən sonra başlanılıb. Niğde bələdiyyəsindən hadisə ilə bağlı verilən açıqlamada alpinist bacıların Kızılkaya zirvəsinə doğru hərəkət etdiklərini bildirib: "Belarus konsulluğu tərəfindən bələdiyyəmizə telefonla verilən məlumata görə, Marya və Valentina İvankova alpinizmlə məşğul olmaq üçün noyabrın 15-də Ankaradan Niğdeyə gəliblər. Ancaq noyabrın 18-də geri dönəcəkləri bildirilsə də, onlardan heç bir xəbər alınmayıb. Xilasetmə komandasından 4 nəfər və AFAD qruplarından 10 nəfər heyətlə axtarış-xilasetmə işlərini davam etdirir".

**Məlahət**

## Araşdırma başladı

Acun Ilıcalı da həbs oluna bilər




**İstanbul Respublika Prokurorluğu Acun Ilıcalı barəsində "qanunsuz mərc oyunları reklamı və təşviqi" ilə bağlı istintaq başladıb.**

Türkiyə mətbuatı xəbər verir ki, İstanbul Baş Prokurorluğu Acun Ilıcalı, Tv8 televiziya kanalı və EXXEN rəqəmsal platformasının məsul şəxsləri haqqında "qanunsuz mərc oyunları reklamı və təşviqi" ilə bağlı istintaqa başlayıb.

*Qeyd edək ki, Türkiyə UEFA Millətlər B Liqasının 4-cü Qrupunun 6-cı həftəsində Monteneqro ilə qarşılaşıb və TV8-də canlı yayımlanıb. Qarşılaşma zamanı reklam lövhələrində qanunsuz mərc saytları reklam edilib. Sosial mediada trend olan məsələ ilə bağlı açıqlama verən Acun Ilıcalı xaricdə oynanılan matçların reklam lövhələrinin satışının ev sahibi ölkəyə aid olduğunu bildirmişdi.*

## Ev təmir etməyə getdi

30 kq qızıl tapdı



**Avstriyanın Vyana şəhərində ev təmir etməyə gedən santexnik boruların arasına basdırılmış qutuda 2 milyon avro (3 milyon 564 min AZN) dəyərində qızıl tapıb.**

Bakupost.az məlumat verir ki, təsadüfən tapılan qızıl ev sahibi ilə santexnik arasında bərabər bölünüb.

Qızıl sikkələrin İkinci Dünya Müharibəsi zamanı basdırıldığı güman edilir.

## Elm adamları siçanlara maşın sürməyi öyrədəcək

Siçanlarda sevincə bənzər müsbət emosiyalar yaranıb



**Elm adamları siçanlara maşın sür**məyi öyrədəcək.

Milli.Az xarici mətbuata istinadən xəbər verir ki, Riçmond Universitetinin nevroloqu Kelli Lambert "The Conversation" jurnalına yazdığı essedə siçovullara maşın sürməyi öyrətdiyi eksperimentlər barədə bəhs edib. Lambert və onun komandası illərdir ki, laboratoriya siçovullarına heyvan mühiti, stress və idrak, yeni bacarıqların inkişafı arasındakı əlaqəni öyrənmək yolu kimi maşın sürməyi öyrədirlər. Alimlərin sözlərinə görə, ən təəccüblü məqam heyvanların davranışı olub. Bəzi siçanlar hərəkətə başlamazdan əvvəl maşına tullanır və pedala basırdılar. Tədqiqatçıların fikrincə, bu, sürücülük prosesinin onlara zövq verdiyini nümayiş etdirir. Eksperiment, həmçinin göstərdi ki, siçanlarda sevincə bənzər müsbət emosiyalar yaranıb.

## "Supermen" gizli evlənib



**Məşhur ingilis aktyor Nikolas Holt gizli evlənib.**

Axşam.az xəbər verir ki, bu barədə 34 yaşlı aktyor "E! News"a açıqlamasında deyib.

Nikolas sevgilisi Brayana Holli haqqında danışarkən onu həyat yoldaşı kimi təqdim edib.

*Qeyd edək ki, cütlüyün 2 övladı var. Nikolas "Supermen" obrazı ilə məşhurlaşıb.*




# Qadınların sevimli avtomobili

"KİA"nın modeli bir türkə məxsusdur



**Berk Erner 1990-cı ildə ABŞ-nin Çikaqo şəhərində anadan olub. Anası memar, atası elektronika mühəndisi olan Berk Türkiyəyə köçdükdən sonra gəncliyinin böyük hissəsini İstanbulda keçirib.**

Ailənin tək övladı olması isə hələ uşaq yaşlarında özünə bir çox məşğuliyyətlər tapmağa sövq edib. Ən sevimli məşğuliyyəti isə rəsm çəkmək olub. Rəsmlərin çoxu avtomobil şəkilləri idi. Sadə kağız və qələmlə müxtəlif avtomobil modelləri çəkən Berk bununla da avtomobil dizayneri olmaq yolunda ilk addımlarını atıb. "Şərq" "Milliyet.com.tr"yə istinadən kağız və qələmlə başlayan avtomobil dizaynerliyinin ən məşhur avtomobil markası KİA-ya uzanan yolunu təqdim edir. Berk həmin günləri belə xatırlayıb: "Avtomobillərə böyük marağım avtomobil jurnallarında şəkillərə baxmaqla başladı. Sonralar bu maraq və sevgi qat-qat artdı. Təxminən 8-9 yaşlarımda bəyəndiyim avtomobilləri hazırlayan avtomobil dizaynerlərinin olduğunu öyrəndim və o gündən etibarən həyatımla nə etmək istədiyimə qərar verdim. İndi çox xoşbəxtəm ki, özümü dərk etdim, uşaqlıq arzusumu gerçəkləşdirdim". İbtidai, orta və lisey təhsilini İstanbulda başa vuran dizayner Berk 2009-cu ildə Koç Liseyini bitirib. Daha sonra İncəsənət Mərkəzi Dizayn Kollecinin Nəqliyyat Dizaynı şöbəsinə qəbul olunub. 2014-cü ildə universiteti bitirərək peşə həyatına başlayıb. 2018-ci ildə "Kia"nın dizayn komandasına qoşulan gənc dizayner EV9 modeli ilə ilin dizaynı mükafatını almağa müvəffəq olub və bunun üçün "Kia" dizayn prosesini tamamilə ona həvalə edib. Bir avtomobilin dizayn prosesinin təxminən 5 il davam edən uzun bir proses olduğunu ifadə edən Berk, "Hər bir layihə kimi, EV9 layihəsi də "Kia"nın müxtəlif coğrafiyalarındakı dizayn studiyaları arasında rəqabət kimi başladı və bir neçə aradan qaldırılma mərhələsindən keçərək seçildi. "Biz əvvəlcə kiçik miqyasda, daha sonra isə tam ölçülü gil modellərlə baxışımızı əks etdirən rəsmlərlə başlayan layihəni inkişaf etdirdik. Bu müddət ərzində bir çox sınaqlardan keçən EV9, şirkətdən aldığımız geribildirimlərlə indiki şəklini aldı. Mühəndislər, əlbəttə ki, biz layihəyə başladığımız zaman bu vasitənin gələcəyini, hansı mühitdə yer alacağını təxmin edə bilirdik. EV9-un 2024-cü ildə dünyanın ən prestijli üç dizayn mükafatını alması həm məni, həm də bir hissəsi olduğum komandanı xoşbəxt etdi. Ardınca "Red Dot"da verilən "Ən yaxşıların yaxşısı" mükafatını qazandıq. Anadolu Qrup markalarından biri olan "Kia", təşkil etdiyi tədbirdə tam elektrikli EV6 və Niro EV modellərindən sonra bu ilin əvvəlində ölkəmizdə satışa çıxarılan EV9-u təqdim edib. Etibarlı dizaynı ilə diqqət çəkən tam elektrik Kia EV9 qadınlar tərəfindən 2024-cü il üçün dünyanın ən yaxşı avtomobili seçilib". Hazırda "Kia"nın Amerika Dizayn Studiyasında gələcək "Kia" modelləri üzərində işləyən Berk Erner onun uğurunun əsasını təşkil edən elementləri belə ümumiləşdirir: "Əslində, sadəcə olaraq, gördüyüm işi sevdiyim üçün uğurlu olduğumu düşünürəm. Hansı işə başlasan da, uğur qazanmaq üçün uzun müddət böyük səy və fədakarlıqla çalışmaq lazımdır. İnsana motivasiya verən işinə olan sevgidir".

**Məlahət**



# Çörəyi bəyənmədi, evdən getdi

4 aydır tapılmır




**Bursanın Mustafakamalpaşa bölgəsində qəribə hadisə yaşanıb. Yaşlı anasının mağazadan aldığı çörəyi bəyənməyən oğul küsərək evdən gedib. 4 aya yaxındır harada olduğunu bilən yoxdur.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən xəbər verir ki, itkin oğul Bülənt Dalğının yaşlı anası Zeliha Dalğın illər əvvəl həyat yoldaşından ayrılıb, ana-bala birlikdə yaşamağa başlayıblar. 44 yaşlı oğlunun hərəkəti üzündən ana 4 aya yaxındır göz yaşı tökür. Bülənt Dalgın 2024-cü il mayın 3-də anasının "uzun çörək əvəzinə yumru çörək alması" səbəbindən əsəbiləşərək evdən çıxıb və bir daha geri qayıtmayıb. Günlərlə yatmadan gah qapı önündə, gah da evinin eyvanında "səhər evə gələcək", deyərək ümidlə keşik çəkən yaşlı qadının gözləri ağlamaqdan az qala kor olub. Oğlundan xəbər almayan Zeliha Dalgın efirə çıxıb və oğlunu axtardığını deyib. Təkbaşına qalan Zeliha Dalğın aldığı təqaüdlə nə evinin kirayəsini ödəyə bilir, nə də yeməyinə, ərzağa çatdıra bilir. Kirayəni ödəyə bilmədiyi üçün ev sahibi yaşlı qadından evdən çıxmasını tələb edib. Bədbəxt anaya dövlət sahib çıxıb, qadın sığınacağa yerləşdirilib. Türkiyənin Ailə və Sosial Siyasət Nazirliyi Zeliha Dalğını İnegöl Fatma Göztepe Qocalar Evinə yerləşdirib. Bülənt Dalgının evdən çıxmasından isə 113 gün keçir. Hələ də izi tapılmayan Dalgınla bağlı fərqli xəbərlər verilib. Bu müddət ərzində hətta televiziya proqramlarına da çıxan qadın oğlundan heç bir xəbər ala bilmədiyini söyləyib. B.Dalğının psixoloji problemləri olduğu öyrənilib. Oğlundan danışarkən gözləri yaşla dolan Zeliha Dalgın, "əlimdən gələni etdim. Amma xəstələndim. Dövlət mənə qayğı göstərdi. Əvvəllər İstanbulda yaşayanda belə idi, harasa gedirdi, amma yenə evə dönürdü. Oğlum, sağam, salamatam de, bu mənə bəsdir", söyləyib. Oğlu yoxa çıxandan sonra taqətdən düşdyünü bildirən yaşlı qadın, "şükür Allaha, dövlət mənə sahib çıxıb. Burada mənə yaxşı baxırlar, sağ olsunlar. Bircə oğlumdan xəbər almaq istəyirəm, başqa istəyim yoxdur", deyib.

**Məlahət**

## Arıqladır, qış xəstəliklərindən qoruyur



**Qışda salatları bəzəyən turp tərkibindəki vitaminlər, minerallar və liflə tam sağlamlıq qaynağıdır.**

Axşam.az xəbər verir ki, çoxsaylı araşdırmalar nəticəsində turp yeməyin immuniteti gücləndirdiyini sübut edib. O sizi qış xəstəliklərindən qoruyar.

**Gündə bir turp yeməyin 7 faydasını təqdim edirik:**

Hüceyrə zədələnməsinin qarşısını alır.
İmmuniteti gücləndirir.
Qan şəkərini balanslaşdırır.
Ürək xəstəliklərindən qoruyur.
Xolesterolu aşağı salır.
Həzmi asanlaşdırır.
Aclığı yatıraraq arıqlamağa kömək edir.

## Birinci növbədə bol maye qəbul edin!

Təbii yolla baş ağrısını azaltmaq olar



**Baş ağrısını aradan qaldırmaq üçün təbii üsullar bəzən dərmansız rahatlıq gətirə bilər.**

Milli.Az aşağıda bəzi təsirli üsulları təqdim edir:

Bol maye qəbul edin: Susuzluq baş ağrısının əsas səbəblərindən biridir. Gündə kifayət qədər su içmək baş ağrınızı yüngülləşdirə bilər.

Nanə və ya lavanda yağı: Nanə yağı gicgah və alın nahiyəsinə çəkildikdə qan dövranını yaxşılaşdırır və sakitləşdirici təsir göstərir. Lavanda yağı da rahatlıq verir və stresslə bağlı baş ağrılarını azaldır.

Zəncəfil çayı: Zəncəfil iltihab əleyhinə xüsusiyyətlərə malikdir və baş ağrısını yüngülləşdirə bilər. Bir fincan təzə zəncəfil çayı içmək faydalı ola bilər.

Düzgün yuxu: Yuxu çatışmazlığı baş ağrısını daha da artırır. Gündəlik yuxu rejiminizə diqqət yetirin.

İsti və ya soyuq kompres: Gözlərin üstünə isti və ya soyuq dəsmal qoymaq gərginlikdən yaranan baş ağrılarını azalda bilər. Migrendə adətən soyuq kompres daha təsirlidir.

Masaj: Alın, boyun və ya çiyin nahiyəsinə yumşaq masaj baş əzələlərini rahatlaşdırıb ağrını azalda bilər.

Təmiz hava: Qapalı və havasız mühit baş ağrısını artıra bilər. Açıq havada vaxt keçirmək və ya otağı havalandırmaq kömək edir.

Kofeinin diqqətli istifadəsi: Çox az miqdarda kofein baş ağrısını azalda bilər, amma həddindən artıq istifadədən çəkinin, çünki bu, əks təsir göstərə bilər.

Baş ağrınız tez-tez təkrarlanarsa, həkimə müraciət etməyiniz tövsiyə olunur.